QARABAĞ AZƏRBAYCANDIR!

Mir Cəlal



## Milyonlarla insanın məhəbbətini qazanmış Mir Cəlal Paşayev

3

SƏS
№ 177 (6618) 29 sentyabr 2022-ci il. Qiymәti 60 qәpik

# Ata vəsiyyətindən ZƏFƏRƏ!



# Ermənistan Rusiyanı da satdı

13



*Ermənistan qanunsuz əməlləri, işğalçı siyasəti səbəbindən yaxın və uzaq dostlarının qınağı ilə üzləşib. Uzun illər ermənilər hansı quruluşda olurlarsa - olsunlar, kimin hakimiyyətdə olmasından asılı olmayaraq Rusiyanın daim himayəsi altında olub. Bu, sirr deyil və yenilik də deyil. Ermənistanı son vaxtlar daha uyğun adı ilə çağırmağa başlayıblar, Rusiyanın Cənubi Qafqazda "for-post"u. Bəli, bu ad ermənilərə və Azərbaycan torpaqlarında elə rusların əli ilə yaradılmış Ermənistan adlı qondarma dövlətə tam yaraşır...*

## Yaşıllıqların bərpası istiqamətində hansı işlər aparılır?



11

## "Heydər Əliyevin hakimiyyətə gəlməsi bir xoşbəxtlik idi"



3

## "Ermənistan Qərbin dəstəyi ilə Azərbaycan və Rusiyaya qarşı oynamağa çalışır"



15



## Ermənistan Zəngəzurdan çıxdı- Konqresmenin ürəyi niyə partladı?



## Uşaqlar payızda niyə tez-tez xəstələnirlər?- həkim açıqladı

16

"Davamlı müşahidə edilən isti hava şəraitindən sonra havanın birdən soyuması xüsusilə uşaqlar arasında soyuqdəymə və qripə yoluxma sayının artmasına səbəb olur".



## "Barselona"nın oyunçusu dünya çempionatını buraxa bilər

16



# Yenidən ucaldılan ŞUŞA!

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada yeni inşa olunan bir sıra obyektlərdə işlərin gedişi ilə tanış olublar*









***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində inşa edilən yeni yaşayış kompleksində tikinti işlərinin gedişi ilə tanış olublar. Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.***

Bildirildi ki, tikintinin ümumi sahəsi 8 hektara yaxındır. Yaşayış kompleksi 23 binadan ibarət olacaq. Səkkiz binanın tikintisinə bu il iyulun 1-də, digər 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb.

Məlumat verildi ki, yaşayış kompleksində ümumilikdə 450 mənzil olacaq. Burada birotaqlı mənzillərin sayı 28, ikiotaqlı mənzillərin sayı 195, üçotaqlı mənzillərin sayı 190, dördotaqlı mənzillərin sayı 30, beşotaqlı mənzillərin sayı isə 7-dir. Binalar 3 və 5 mərtəbəli olacaq. Kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində hotel və konfrans mərkəzində aparılan tikinti işləri ilə tanış olublar. Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, ümumi ərazisi 3 hektardan artıq olacaq hotel və konfrans mərkəzinin inşaat işlərinə bu ilin aprelində başlanılıb. Mərkəz ümumilikdə 154 otaqdan ibarət olacaq. Burada 400 nəfərlik konfrans zalı, görüş otaqları, restoranlar, mağazalar, yeraltı və yerüstü avtodayanacaqlar və digər zəruri infrastruktur yaradılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin binasında yaradılan şəraitlə tanış olublar. Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, bina 1970-ci illərdə inşa edilib. Burada bərpa və yenidənqurma işlərinə 2021-ci ilin iyununda başlanılıb. Binada ümumilikdə 41 iş otağı var. Burada əməkdaşların yüksək səviyyədə çalışması üçün hərtərəfli şərait yaradılıb. Binada, həmçinin akt və iclas zalları da mövcuddur.

Dünən həmçinin Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin gedişi ilə tanış olublar. Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa edilib. Mehmandarovlar ailəsinə məxsus olmuş kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir.

Heydər Əliyev Fondu Mehmandarovların malikanə kompleksində, həmçinin ailə məscidi və ərazidəki bulaqda təmir-bərpa işlərinə 2021-ci ilin oktyabrından başlayıb. İndiyədək evin və məscidin dam örtükləri orijinala uyğun quraşdırılıb, tavanlar bərpa olunub və rənglənib, qapı və pəncərələr qoyulub. Dağılmış divar bərpa edilib, zədəli divarda bərkitmə işləri aparılıb. Eyvanların və erkerlərin taxta konstruksiyalarının çürümüş hissələri bərpa olunub. Evin çöl pilləkəni yenidən qurulub, döşəmə daşlarının dağılmış hissələri bərpa edilib. Eskiz layihələri əsasında divar və tavanlarda rəsmlərin bərpası işləri görülür. Bu işlər ailə məscidinin uçmuş günbəzlərini, damını, mehrabı və "Güldəstə"sini də əhatə edir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva eyni zamanda yenidən qurulan hoteldə aparılan təmir-bərpa işlərinin və Şuşa şəhəri 1 saylı tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin mənzil kommunal və təmir xidmətinin inzibati binasında görüləcək əsaslı təmir işləri barədə də məlumat verilib.

# Milyonlarla insanın məhəbbətini qazanmış Mir Cəlal Paşayev

***Azərbaycan ədəbiyyatında hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınan və elmin, ədəbiyyatın, təhsilin inkişafında misilsiz xidmətlər göstərmiş xeyirxah insan, görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayevin 28 sentyabr anım günüdür. Mir Cəlal həm gözəl hekayə ustası, sanballı romanlar, povestlər müəllifi kimi tanınır, həm ədəbiyyatımızın yaradıcılarından biri, həm də gözəl ədəbiyyatşünas alim kimi qiymətləndirilir. Mir Cəlal əli qələm tutan gündən ömrünün sonuna qədər həm bədii ədəbiyyat, həm də ədəbiyyatşünaslıq sahəsində eyni həvəs və coşqunluqla, eyni ardıcıllıq və uğurla yorğunluq bilmədən çalışmış, zəngin və məhsuldar yaradıcılıq yolu keçərək yüzdən artıq kitab çap etdirmişdir.***




Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olmuşdur. Sonralar ailəsi Gəncə şəhərinə köçmüş, ibtidai təhsilini burada almış, uşaqlıq və gənclik illərini bu şəhərdə keçirmişdir. 1924-1928-ci illərdə Gəncə Darülmüəllimində oxumuş, oranı bitirdikdən sonra Gədəbəy 7 illik məktəbinə müəllim göndərilmişdir. 1929-1930-cu illərdə 1 saylı Gəncə şəhər məktəbində direktor vəzifəsində çalışmışdır. 1930-1931-ci illərdə Kazan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakultəsində oxumuş, 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitunun aspiranturasında təhsilini davam etdirmiş, 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin ictimai elmlər bölməsinə elmi işçi vəzifəsinə götürülmüşdür. 1936-1941-ci illərdə Pedaqoji İnstitutda və Dövlət Universitetində müəllimlik etmişdir. Mir Cəlal 1940-cı ildə ”Füzulinin poetik xüsusiyyətləri” adlı əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə ”Azərbaycanda ədəbi məktəblər” əsərinə görə filologiya elmləri doktoru, alimlik dərəcəsi almışdır. Görkəmli nasir Mir Cəlal yaradıcılığının mövzu rəngarəngliyi, üslub xüsusiyyətləri, bütünlükdə orijinallığı ilə Azərbaycan yazıçıları içərisində özünəməxsus yer tutur. Mir Cəlal ədəbiyyatımızda gözəl hekayələr ustası, rəngarəng mövzulara həsr olunmuş romanlar yaradıcısı, ədəbiyyatımızın klassik və müasir dövrünü, müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınmışdır.

Mir Cəlal bədii yaradıcılığa 1928-ci ildən başlamışdır. İlk hekayə və oçerkləri 1930-cu ildə çap olunmuşdur. İlk hekayə və oçerkləri ”Qızıl Gəncə”, ”Ədəbiyyat cəbhəsində”, ”Hücum” jurnallarında və ”Gənc işçi” qəzetində dərc olunmuşdur. Dövrün ruhuna uyğun olaraq ”Sağlam yollarda” adlandırdığı ilk oçerklər kitabı 1932-ci ildə çap olunmuşdur. O, ədəbiyyat tarixinə, tənqid və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərin müəllifidir. Mir Cəlal diqqətəlayiq romanlar müəllifi kimi də tanınmışdır. ”Dirilən adam” və ”Bir gəncin manifesti” romanları yazıçının dəyərli əsərlərindəndir. ”Bir gəncin manifesti” Mir Cəlal yaradıcılığının bütün gözəl keyfiyyətlərinin vəhdətidir, deyən xalq şairi Bəxtiyar Vahabzadə bunu nəinki Mir Cəlalın, Azərbaycan nəsrinin ən gözəl nümunələrindən biri kimi qiymətləndirirdi. Sonralar Mir Cəlal Azərbaycan həyatının aktual problemlərinə həsr olumuş ”Açıq kitab”, ”Təzə şəhər”, ”Yolumuz hayanadır?” kimi romanlarını yazır. Gözəl roman ustadı kimi tanınan Mir Cəlal haqqında tanınmış ədəbiyyatşünas Jak Rıkaçev belə yazırdı: ”Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir...”

Bədii ədəbiyyatın müxtəlif janrlarına müraciət edən Mir Cəlal yaradıcılığında kiçik hekayələr xüsusi yer tutur. 1940-cı ildə Mir Cəlalın hekayələrinin rus dilinə Əziz Şərif tərəfindən tərcümə olunması gözəl bir təşəbbüs kimi qiymətləndirilməlidir. Ədibin istedadlı gənclərə olan məhəbbətini, analıq şərəfini və uşaqlara qayğı məsələsini ürəklə tərənnüm etdiyi ”Bostan oğrusu”, ”Yanlış barmaqlar”, ”Mərkəz adamı” kimi hekayələr tərbiyəvi əhəmiyyətli olduğu üçün yüksək qiymətləndirilmişdir. O, ”Pərzad”, ”Qaymaq”, ”Dost görüşü”, ”Qonaqpərəst” kimi hekayələrində Azərbaycan xalq adət və ənənələri ilə bağlı motivlərə xüsusi diqqət yetirib, hekayələrin həyat və məişətlə üzvi əlaqəsindən bəhs edir. İkinci Dünya müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orijinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Böyük vətən müharibəsi dövründə ”hər şey cəbhə üçün, hər şey qələbə üçün!” şüarı ədəbiyyatın da istiqamətini, yaradıcılıq pafosunu və inkişaf yolunu müəyyənləşdirən xarakterik əlamət oldu.

İkinci Dünya müharibəsi Mir Cəlalın ədəbi-elmi fəaliyyətində yeni səhifələr açır. Müharibənin əvvəllərində Uzaq Şərqdəki ordu hissələrinə gedən, habelə döyüşən ordunun həyatı ilə yaxından tanış olan ədib çoxlu oçerk, hekayə və publisist yazıları ilə nəzəri cəlb edir. Mir Cəlal ”Yollar”, ”Axşam səfəri”, ”Atlı”, ”Snayper” hekayələrinin mövzusunu bilavasitə cəbhə həyatından, müharibə səhnələrindən götürülmüş və səciyyəvi fəaliyyət prosesində açılan döyüşçü surəti yaratmağa çalışmışdır. İkinci Dünya müharibəsinə, ölkənin müdafiəsinə həsr olunan hekayələr mövzu orijinallığı, mübarizə pafosu və üslubuna görə Mir Cəlalın yaradıcılığında xüsusi mərhələdir. Səməd Vurğun Onun əsərlərinin təsir gücündən yazarkən belə qeyd edir: ”Aldığımız cəbhə məktubunda bir döyüşçü yazır ki, ”Vətən yaraları” hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum”.

Ədəbi fikrimizin tarixinə Mir Cəlal, həmçinin, görkəmli tənqidçi-ədəbiyyatşünas kimi də daxil olmuşdur. O, Azərbaycan ədəbiyyatının 1975-ci illərədək keçdiyi yola, sənətkarlıq, realizm və xəlqilik axtarışlarına, ədəbi prosesin mənzərəsinə, janrların vəziyyət və imkanlarına dair məzmunlu çıxışlar edir, məqalələr yazır, tədqiqat işləri aparırdı.

Mir Cəlal sadəcə bir ədib-müəllim deyildir, O, alimdir, ədəbiyyatşünasdır, elmi kadrlar yetişdirmək də Onun çoxcəhətli fəaliyyətinə daxildir. Müasir dövrümüzdə Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycanın əməkdar elm xadimi, yazıçı-alim Mir Cəlal Paşayevin ədəbi və ictimai fəaliyyəti, yaradıcılıq xüsusiyyətləri, əsərlərinin yaranma tarixi öyrənilir, Onun irsi gənc nəslə çatdırılır. Təsadüfi deyildir ki, bu gün təkcə Azərbaycanda deyil, Onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri müxtəlif dillərdə nəşr edilərək maraqla oxunur. Azərbaycan Respublikası Prezidentinin ”UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında” 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilmişdir. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir.

Mir Cəlal Paşayevin 100 illiyinin UNESCO səviyyəsində qeyd edilməsi, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür. İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, Onun həm də xeyirxahlığı, böyük və əlçatmaz müəllimliyi, bəşəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə ucalıq abidəsi qurur. Ədibin bu zirvədəki yeri daim qalacaq və Onun mərhəmət sevgisi dünya durduqca yaşayacaqdır.

**ZÜMRÜD BAYRAMOVA**

# İrina Tsukerman: ”Avropa ölkələri qışqırır, ayaqlarını yerə döyəcləyir, təhdid edirlər”




“Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı öz ərazilərini erməni işğalından azad etməsinin ardınca Bakının situasiyası yaxşılaşdı, lakin təəssüf ki, sərhəddə baş verən son hadisələr (12-14 sentyabr) müxtəlif beynəlxalq KİV-lərin Azərbaycana qarşı hücumları ilə müşahidə olundu”. SİA xəbər verir ki, bu fikirləri ABŞ-nın hüquq müdafiəçisi və jurnalisti, Scarab Rising, Inc. Konsultasiya şirkətinin prezidenti İrina Tsukerman YouTube kanalında ”Rasim Babayevlə müasir söhbət” adlı müəllif proqramındakı müsahibəsində deyib.

Onun sözlərinə görə, İkinci Qarabağ müharibəsindəki uduzan tərəf birdən-birə, gözlənilmədən mümkün prosesi pozmağa və Bakının Avropada artan roluna və prinsiplərinə qarşı çıxış etmək imkanına malik oldular: ”Bu yolla növbəti təbliğat müharibəsi realizə olundu. Biz növbəti dəfə gördük ki, əslində nəyin baş verdiyini çox gözəl bilən müəyyən Avropa ölkələri qışqırır, ayaqlarını yerə döyəcləyir, təhdid edir və s. Yəni bütün bunlar çoxdan işlənmiş ssenaridir”.

Tsukermanın sözlərinə görə, Bakı bu gün də güclü informasiya hücumuna məruz qalmaqdadır və ikili standartlar siyasəti ilə qarşı-qarşıya qalır. O, əlavə edib ki, bu situasiya heç vaxt dəyişilməyib. Baxmayaraq ki, müvəqqəti sakitlik yaranmışdı, amma bu, müharibənin sonu demək deyil. Müharibənin sonu sülh sazişinin imzalanması, tam inteqrasiya və s. kimi məsələlərin həyata keçirilməsidir. Amerikalı ekspert regionda sabitliyin əldə edilməsi üçün Rusiya sülhməramlılarının səmimi məqsədlərinə şübhə etdiyini də istisna etməyib və onu da bildirib ki, sülh prosesinin əldə olunmasında bəzi məqamlar mövcuddur. ”Nə qədər ki Rusiya, erməni revanşistləri, beynəlxalq lobbiçilər və hətta İran proses iştirakçılarına əlçatan olacaqlarsa həmin proses pozulacaq”, deyə bildirən Tsukermana sual edib ki, məhz bu kimi hücumlara, terror təxribatlarına nə üçün imkanlar olur? SİTAT: ”Ona görə ki, Rusiya sülhməramlıları öz işlərini görmürlər. Onlar ayrı-ayrı qruplaşmalara göz yumurlar. Bu, o deməkdir ki, onlara sadəcə etibar etmək olmaz”. Hüquq müdafiəçisinə görə, beynəlxalq güclər prosesə cəlb edilməklə baş verən erməni təxribatlarının təkrarlanmaması üçün fəaliyyətə keçmək olar.

**Rövşən RƏSULOV**

# “Heydər Əliyevin hakimiyyətə gəlməsi bir xoşbəxtlik idi”



“Heydər Əliyevin 3 oktyabr 1993-cü il tarixində ümumxalq səsverməsi ilə Prezident seçilməsi tarixin dönüş nöqtəsi idi. Gəlin tarixə nəzər salaq. Bu yol 20 iyul 1990-cı il tarixində qəlbinin səsi ilə Azərbaycana qayıdan Heydər Əliyevin böyük siyasətə qayıdışı ilə başladı. Bədnam qüvvələr onun paytaxt Bakıda qalmasına imkan vermədilər iki gün sonra Naxçıvana yola düşmək zorunda qaldı. Həmin ildə də Azərbaycan SSR xalq deputatı və Naxçıvan MSSR xalq deputatı seçildi. 3 sentyabr 1991-ci il tarixində Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçildi və müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini oldu”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Sadiq Qurbanov deyib.

Onun sözlərinə görə, 21 noyabr 1992-ci il tarixdə Azərbaycan ziyalılarının müraciətinə əsasən Heydər Əliyev Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçildi: ”1993-cü ilin may-iyun aylarında ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandığına görə, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbini irəli sürüb və ölkənin o dövrkü rəhbərliyi onu Bakıya dəvət etməyə məcbur oldu.

Heydər Əliyev 15 iyun 1993-cü il tarixində Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməklə eyni zamanda iyunun 24-dən isə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 0 3 oktyabr 1993-cü il ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu tarixin Azərbaycan xalqına bəxş etdiyi bir xoşbəxtlik idi. Böyük siyasi xadim Heydər Əliyev parçalanmaqda olan dövlətimizi daxili və xarici düşmənlərimizdən qorudu. Siyasi sabitlik yaratdı. Heydər Əliyevin hakimiyyətə gəlməsi nəticəsində dövlətimiz möhkəm təməllər üzərində qurulmağa başladı. Orduda vahid komnadanlıq təmin edildi, nizami ordunun formalaşması intensiv şəkil aldı. Ermənistanla atəşkəsə nail olundu. Beynəlxalq miqyasda Ermənizstanın təcavüzkar kimi tanınmasına nail olundu ən əsası isə Heydər Əliyev öz siyasi varisi İlham Əliyevi yetişdirdi. Bu isə Azərbaycanın gələcəyinin təminatçısına çevrildi”.

**Arzu Qurbanlı**

# Böyük QAYIDIŞA Heydər Əliyev Fondu öz töhfələrini verir



*Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidini ziyarət edib*

***Ermənistanın otuz ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal altında olan ərazilərimiz darmadağın edilib, erməni vandallığına və təcavüzünə məruz qalıb, o məkanlardakı misilsiz mədəni irsimizə çox böyük ziyan dəyib. Yüzlərlə tarixi abidənin - muzeylərin, incəsənət qalereyalarının, məscidlərin, qəbiristanlıqların yerlə-yeksan və talan edilməsi, təhqir olunması erməni əməllərini bir daha dünyaya təqdim etdi.Artıq işğaldan azad olunan ərazilərimizin, tarixi-dini, mədəni abidələrimizin təmir və bərpası uğurla həyata keçirilir.***

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidini ziyarət edib, burada Heydər Əliyev Fondu tərəfindən aparılan yenidənqurma və bərpa işləri ilə tanış olublar. Vurğulamaq lazımdır ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də Fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etdi. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə regionda icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunublar. Hazırda bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilib. Abidələrin yenidən qurulması zamanı onların ilkin, yeni autentik simasının pozulmaması prinsipi əsas götürülür. Yuxarı Gövhər Ağa məscidində bərpa işlərinə 2021-ci ilin noyabr ayından başlanılıb. Şuşa şəhəri işğal altında olduğu müddətdə ermənilər tərəfindən dağıdılmış Yuxarı Gövhər Ağa məscidində konservasiya və bərpa işləri ilkin memarlıq üslubuna uyğun olaraq Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir. Bərpa prosesi Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə aparılır. Bugünədək məsciddə möhkəmləndirmə işləri görülüb. Ermənistanın işğalı dövründə məscidə edilmiş müdaxilələr aradan qaldırılıb. Fasadlarda və binanın daxilində suvaq işləri başa çatdırılıb. Minarələrin boya işlərinə başlanılıb. Qeyd edək ki, Şuşa şəhərinin mərkəzi Meydanında yerləşən və şəhər ərazisində tikilmiş ən qədim məscid olan Yuxarı Gövhər Ağa məscidi Qarabağ xanlığının və Şuşa qalasının banisi Pənahəli xanın göstərişi ilə Qarabağ xan sarayı ilə paralel təxminən 1750-ci illərdə qamışdan inşa edilmişdir. İbrahimxəlil xan hakimiyyətə gəldikdən sonra 1768-1769-cu illərdə qamış məscidin yerində daşdan yeni məscid tikilmişdir. XIX əsrin I yarısında Gövhər ağanın maddi dəstəyi ilə İbrahimxəlil xanın yararsız hala düşmüş məscidinin yerində qoşa minarəli üçüncü məscid inşa edilmişdir. 1883-cü ildə Gövhər ağanın maddi vəsaiti əsasında üçüncü məscidin yerində Şuşanın dördüncü və sonuncu cümə məscidi inşa edilmişdir. 1883-cü ildə Gövhər ağanın maddi vəsaiti əsasında memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən Verşaginin təsvir etdiyi məscidin yerində Şuşanın dördüncü və sonuncu cümə məscidi inşa edilmişdir. Həmin məscid bizim dövrümüzə yaxşı saxlanmış vəziyyətdə çatmışdır.Qarabağ müharibəsi zamanı Şuşanın işğalından sonra məscid qismən dağıdılmış, interyerləri demək olar ki, məhv edilmiş, minarələrinin dekoru zədələnmiş və çadırvari örtükləri dağıdılmışdır. Hazırda Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri davam etdirilir. Bərpa işlərinin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

Heydər Əliyev Fondunun Şuşada reallaşdırdığı layihələri sırasında Üzeyir Hacıbəylinin heykəlinin açılışını qeyd etməliyik. Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmiş heykəl Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən hazırlanıb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Şuşada dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpası və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. Mehmandarovların da malikanəsi, məhz ermənilərin çirkin niyyətlərinin qurbanı olub. Mühüm mədəni-tarixi memarlıq abidəsi olan Mehmandarovların malikanə kompleksində bərpa işlərini Heydər Əliyev Fondu aparır. Bəli, bu gün dağıdılmış ərazilərin bərpası və yenidən qurulması istiqamətində abadlıq-quruculuq işləri aparılır. Bu Böyük QAYIDIŞA Heydər Əliyev Fondu da töhfələrini verir.





***Zümrüd BAYRAMOVA***

***“Cəbhədə vəziyyət gərgindir. Ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Beləliklə, artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin 29 sentyabr tarixində ”Rossiya-1” telekanalında yayımlanan ”60 dəqiqə” proqramına müsahibəsində bildirib.***

# Vətən savaşı Ermənistana hər gün məğlubiyyət yaşatdı!



## İlham Əliyev: "Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var"

İki il bundan əvvəl 2020-ci ilin sentyabrın 27-də Ermənistan Azərbaycanın hərbi mövqelərinə və mülki şəxslərə hücum edərək, bilərəkdən və sistemli şəkildə beynəlxalq hüququn norma və prinsiplərini pozaraq, mülki insanları, qadınları və qocaları hədəfə almağa başladı. Hərbi təcavüz nəticəsində insan hüquqları kobudcasına pozulur və günahsız azərbaycanlının həyatına son qoyulurdu. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edirdi.



Məlumdur ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, onun işğalçılıq yolu ilə Qarabağa qarşı olan təcavüzkar siyasəti uzun müddət davam edib. Ötən əsrin 90-cı illərində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı işğalçılıq müharibəsinin başlanması, Azərbaycan ərazilərinin işğalı prosesi və zəbt olunmuş Azərbaycan torpaqlarında qurulmuş işğalçılıq rejimi nəticəsində, dövlətimizə külli miqdarda ziyan dəymişdir. Azərbaycanın erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş ərazilərində törədilmiş vandalizm əməllərinin nəticəsi olaraq, evlər talan edilmiş, sökülmüş, yandırılmış, tarixi abidələr, xüsusilə, qəbiristanlıqlar dağıdılmışdır. İşğal olunmuş Azərbaycan rayonlarının talan və qarət edilməsində, o cümlədən, evlərin, abidələrin, qəbiristanlıqlardakı qəbir daşlarının sökülməsində əsir və girovların əməyindən istifadə edilməsi də danılmaz faktdır. Maddi-mədəniyyət nümunələrinin dağıdılması ilə bağlı ciddi dəlil-sübutlar və faktlar mövcuddur ki, bu istiqamətdə də Respublika Hərbi Prokurorluğunda cinayət tərkibli işlərə baxılmışdır. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı, deportasiya, işgəncə və digər epizodlar üzrə aparılmış istintaq hərəkətləri nəticəsində, Vətən müharibəsinə qədər sülh və insanlıq əleyhinə müharibə cinayətləri törətmiş 239, banditizm, qəsdən adamöldürmə və digər cinayətlər törətmiş 48 nəfər olmaqla 287 nəfər barəsində təqsirləndirilən şəxs qismində cəlbetmə qərarları çıxarılmışdır. Ermənilər öz işğalçılıq siyasətlərini davam etdirirək münaqişənin sülh yolu ilə həllinə razı olmadılar. Vətən müharibəsi dövründə beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirən təcavüzkar Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində həlak olan və xəsarət alanlar oldu. Əlbəttə ki, təcavüzkar Ermənistan öz ənənəvi siyasətini davam etdirir.

Qaniçən ermənilər yaşlılara, qadınlara və uşaqlara zərrə qədər belə mərhəmət etmədən əsl faşist simaların ortaya qoyublar. Məlumdur ki, ölkəmiiz münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında ərazi bütövlüyümüzün tam bərpası çərçivəsində ədalətli həllinə səylər göstərdi. 26 il atəşkəs rejimində yaşasaq da, Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Bu müddət ərzində cəbhədə dəfələrlə atəşkəs rejimi pozuldu. İşğalçı Ermənistan beynəlxalq hüquqa kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət vermədi.

Əlbəttə ki, Azərbaycan Ordusunun gücü məlum idi. Ermənistan ordusunun sentyabrın 27-də təxribat törədərək ölkəmizə qarşı hücuma keçməsi, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi və hərbi mövqelərimizi bir neçə istiqamətdən atəşə tutması Azərbaycan Silahlı Qüvvələrini əks-hücum əməliyyatlarına başlamağa məcbur etdi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz 44 gün davam edən müharibənin gedişində möhtəşəm qələbələr qazanaraq dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Vətən savaşında səbir kasası daşan Azərbaycan Ermənistana hər gün məğlubiyyət yaşadırdı. Əslində, işğalçı belə bir acı nəticəni gözləmirdi. Çünki Ermənistanın siyasi və hərbi rəhbərliyi ötən 30 il ərzində güclü ordu mifini yaradaraq əhalini aldadırdı. Bu mifi Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə darmadağın etdi və Ermənistanın qoruyub saxladığı status-kvo və təmas xəttini tamamilə dağıtdı.

Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son illərdə həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı. Ordumuz düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətlərini qəhrəmanlıqla yardı, Ermənistanın hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələrini sıradan çıxartdı. İşğalçı qüvvələrə ağır zərbələr endirir, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikasını məhv edirdi.

### ”BİZ ÖZÜMÜZÜ MÜDAFİƏ ETMƏYƏ VƏ TƏCAVÜZKARI ELƏ CƏZALANDIRMAĞA QABİLİK Kİ, O, BİR DAHA BİZİM TƏRƏFƏ BAXMAĞA CƏSARƏT ETMƏSİN”

Aparıcının Cənab Prezidentə ünvanladığı ”İndi cəbhədə Suriyadan olan muzdlular varmı?” sualına ”Yoxdur. Bu, növbəti feyknyusdur. Suriyadan heç bir muzdlu yoxdur. Bu barədə heç bir fakt, heç bir sübut yoxdur. Bunu erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində dövr edir. Buna heç bir ehtiyac yoxdur”, - deyə Prezident cavab vermişdir: ”Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var. Dünən mən qismən səfərbərlik elan etmişəm. Biz 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin”.

Qısa zamanda ordumuzun uğurlu əks-hücumu nəticəsində işğaldakı ərazilərimizin azad ediləcəyinə qəti əminlik var idi. İlk gündən Kəlbəcər rayonunda, Murovdağda və Ağdərə istiqamətində strateji əhəmiyyətli yüksəkliklərin, həmçinin 6 kəndi - Füzuli rayonunda 4 və Cəbrayıl rayonunda 2 kəndin azad edilməsi bizi qələbəyə doğru aparırdı.

### UCA TANRI HƏR BİR AZƏRBAYCANLIYA MÜQƏDDƏS QARABAĞ TORPAĞINI ÖPMƏYİ NƏSİB ETDİ

”Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!” bu fikirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın 29 sentyabr 2020-ci il tarixində rəsmi ”Instagram səhifəsindəki paylaşımında yer almışdı. Paylaşımda daha sonra deyilirdi: ”Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir. Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır. Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm! Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin! Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Vətən öz şəhid övladları ilə qürur duyur!



## Şəhid ailələrinin 44 günlük Vətən müharibəsi barədə DÜŞÜNCƏLƏRİ

*Azərbaycanın 44 günlük mübarizəsi məhz 27 sentyabr tarixində başlanılıb. Bu tarixdən başlayaraq vətənimizin igid oğulları öz canından, qanından keçərək könüllü şəkildə torpaqlarımızı geri qaytarmaq üçün orduya yazılaraq, döyüş bölgəsinə yollanıblar. 44 gün davam edən döyüş Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu, igid oğullarımızın şücaəti nəticəsində Azərbaycanın qələbəsi ilə başa çatıb. Məhz bu səbəbdən 27 sentyabr tarixi Azərbaycan xalqının yaddaşına daimi şəkildə həkk olunub. Mövzu ilə əlaqədar olaraq SİA şəhid ailələrinin bu günlə bağlı fikirlərini öyrənmək məqsədi ilə onlar arasında sorğu keçirib.*





**Şəhid Cəlil Məmmədlinin** anası Aygün Məmmədova: "27 sentyabr mənim üçün həm ağır, həm də qürurverici günlərdən biridir. Məhz bu tarix Azərbaycan xalqının oyanış günüdür. Azərbaycanın mərd oğulları 44 günlük Zəfər qələbəsinə məhz bu gündən başlayıblar. Şəhidlərimiz və qazilərimiz öz canları, qanları bahasına vətən torpağını geri qaytardılar. Düzdür, biz oğullarımızı, arxamızı, dayağımızı, şirin payımızı itirdik. Lakin şükürlər olsun ki, Azərbaycan bayrağı bu gün Qarabağda dalğalanır. Bizim bu gün qara ləkəmiz silinib. Öz oğlunu itirmiş bir ana üçün müharibə barədə danışmaq çox çətindir. Millətimizə öz təşəkkürlərimi bildirirəm ki, bizi heç vaxt unudmurlar. Hər zaman oğlumu və bizi daima diqqətdə saxlayırlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bütün hər birimiz o oğullara borcluyuq".

**Şəhid İsrail Məmmədovun** həyat yoldaşı İpək Məmmədova: "27 sentyabr tarixini biz qürur hissi ilə keçirdik. Çünki bizim torpaqlarımız 30 il idi ki, düşmənin işğalı altında idi. Şükürlər olsun ki, başda Ali Baş Komandan olmaqla, igid oğullarımız bizə dədə-baba yurdlarımızı qaytardılar. Bunların hər biri güclü sərkərdənin olması ilə bağlıdır. Mənim yoldaşım 1991-ci illərdə baş verən 1-ci Qarabağ müharibəsində Şuşa istiqamətində gedən döyüşlər zamanı şəhid olub. O zamanlar bizim nə güclü dövlət başçımız, nə də yetərli qədər hərbi bazamız yox idi. Lakin bizim bu gün cənab Prezident İlham Əliyev kimi başımız var. Məhz bu səbəbdən də biz artıq qalib ölkəyik. Bizim artıq başımız dikdir".



**Şəhid Bilal Qənbərovun** anası Gültəkin Qənbərova: "27 sentyabrda müharibənin başladığını bildiyimiz zaman biz anaların qəlbinə qəm-kədər çökdü. Mənim oğlumun 29 sentyabrda doğum günüdür. O, məhz elə doğum günü səhər saatlarında Füzuliyə yollandı. Oğlum könüllü şəkildə orduya yazılmışdır. İndi isə ondan bizə yalnız bir qızı qalıb. Oğlum müharibəyə gedəndə də dedim ki, biz qocayıq amma balanı tək qoyub getmə. Mənə cavabında bildirdi ki, getməyə bilmərəm, bu vətən uğrunda yaralı bir insan olmalıyam. Atası ilə mən öz əllərimizlə onu yola saldıq. Mən bütün Azərbaycanın igid oğulları ilə fəxr edirəm. Bizim qeyrətli oğullarımız cənab Prezidentin dəmir yumruq prinsipinə sadiq qalaraq düşmənə sarsıdıcı zərbələr endirdilər. Ümid edirəm ki, müharibə bizim xeyrimizə bitər və bizim bir daha şəhidimiz olmaz. Bu 2 il ərzində bizlər dostumuzu, düşmənimizi tanıdıq. İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası oğlumun təhsil aldığı məktəbin müəllimləri, şagirdləri daimi olaraq bizimlə əlaqə saxlayıb, yadda saldılar. Bu diqqətlərinə görə də onlara minnətdaram".



**Şəhid Şükür Həmidovun** qardaşı Əsəd Həmidov: "Bu gün Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Bəzi hallarda bu günlə bağlı üzülürük ki, igid oğullarımızı itirdik eyni zamanda da sevinirik ki, əzəli və əbədi torpaqlarımızı geri qaytardıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Qazilərimizə də can salığı versin. Allah xalqımıza səbr versin. Biz çox sevincli bir xalqıq ki, vətənimizin belə oğulları var. 30 ildir ki, bizim torpaqlarımız düşmənin nəzarətində qalıb. Lakin artıq bizim güclü Ali Baş Komandanımızın dəmir yumruğu sayəsində bütün ordumuz əmrə tabe olaraq Zəfər tarixinə imza atdılar. 44 günlük vətən mübarizəmiz artıq bütün dünyaya tanışdır. Biz torpaqlarımızı qaytaran oğullarla fəxr edirik. Onlar bizim yaddaşımızdan heç vaxt çıxmayacaqlar".

**Şəhid Rusif Quliyevin** bacısı Rəsmiyyə Quliyeva: "Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onlar qanları ilə 30 il işğal altında olan torpaqlarımızı geri qaytararaq 27 sentyabr tarixini qızıl hərflərlə Azərbaycan xalqının yaddaşına həkk etdilər. Allahdan qazilərimizə can salığı arzulayıram. Biz bütün şəhidlərimizlə fəxr edirik. Onlar bizim hər zaman qəlbimizdədirlər. Biz onları heç vaxt unutmayacağıq".

***Banuçiçək Hüseynli***





# Laçında dalğalanan üçrəngli bayrağımız



***Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən, zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərizində qurduğu silahlı qüvvələrini darmadağın etdi.***

*İlham Əliyev:"Biz müharibədə də qələbə qazanırıq, həyatda da qələbə qazanırıq və bizi güclü edən xalqın iradəsidir, xalqın birliyidir"*

Təhlil

18 may 1992-ci ildə erməni Silahlı Qüvvələri tərəfindən işğal olunmuş Laçın Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli bəyanata əsasən, Azərbaycan Ordusunun bölmələri 2020-ci ilin dekabrın 1-də Laçın rayonuna daxil oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Laçın şəhərində çıxışında bildirdiyi kimi, "Qırx dörd günlük Vətən müharibəsinin sonunda Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu və beləliklə, Azərbaycanın tarixi Zəfəri təsdiqləndi. Bu kapitulyasiya aktının nəticəsində Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal edilmiş hissəsindən öz qoşunlarını çıxarmalı idi və buna əməl etdi".

1992-ci il mayın 17-də Ermənistan tərəfindən Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçının işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Onların öz doğulduqları yerə göndərilməsi əsas məsələlərdən biridir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb.

"Laçın şəhəri bütün Laçın rayonu kimi, işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qalmışdır" - deyən, Azərbaycan Prezidenti qeyd edib ki, erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var: "Ağdam şəhəri tamamilə yerlə-yeksan edilib, Füzuli şəhəri də, həmçinin Cəbrayıl şəhəri də, bütün kəndlər. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən - Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş vermişdir".

Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonunda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, camaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb.

"Laçın şəhərinin böyük hissəsi tamamilə viran qoyulub, dağıdılıb" - deyə, bildirən dövlət başçısı bəzi yerlərdə qanunsuz məskunlaşma aparıldığını diqqətə çatdırıb:"Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrləri buna sadəcə olaraq, göz yumurdular. Halbuki, dəfələrlə bu mənzərəni görürdülər, dəfələrlə. Bax, bu yolla Ermənistandan Qarabağa, Qarabağdan Ermənistana gedərək görürdülər ki, burada qanunsuz məskunlaşma aparılır. Görürdülər ki, Azərbaycan toponimləri sıradan çıxarılır. Görürdülər ki, bizim tarixi, qədim Azərbaycan torpağı olan Laçın erməniləşdirilir, burada qanunsuz məskunlaşma aparılır. Ancaq buna göz yumurdular, sanki bununla razılaşırdılar. Biz Azərbaycan xalqı isə bununla heç vaxt razılaşa bilməzdik. Mən hər dəfə deyirdim ki, heç vaxt imkan verə bilmərik bizim torpağımızda ikinci erməni dövləti yaradılsın".

### "İKİNCİ QARABAĞ MÜHARİBƏSİ OLMAYA DA BİLƏRDİ, ƏGƏR ERMƏNİSTAN BİZİM SÖZÜMÜZƏ BAXSAYDI"

Azərbaycan Ordusunun şanlı tarixində mühüm yerlərdən birini tutan 2016-cı ilin Aprel döyüşləri artıq düşmənə Azərbaycanın gücünü göstərmişdir. Azərbaycan ordusu Aprel döyüşlərində düşmənə dərs verdi. "İkinci Qarabağ müharibəsi olmaya da bilərdi, əgər Ermənistan bizim sözümüzə baxsaydı. Əgər öz xoşu ilə torpaqlarımızdan çıxsaydı, İkinci Qarabağ müharibəsi olmaya bilərdi. 2016-cı ilin Aprel döyüşləri bizim çox böyük qələbəmiz idi, mənəvi cəhətdən və strateji nöqteyi-nəzərdən. O döyüşlər nəticəsində azad etdiyimiz yüksəkliklər bizə əlavə imkanlar yaratdı, o cümlədən İkinci Qarabağ müharibəsində uğurlu yürüşümüzə də zəmin yaratdı"-deyə Prezident bildirib. 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən çıxarıldı və torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı. Əlbəttə ki, məlum aprel döyüşləri - Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsi tarixi hadisəyə çevrildi. Bu, Azərbaycanın konstruktiv mövqeyi idi, haqq-ədalətin bərpası idi. Aprel döyüşlərindən sonra Ermənistan qorxuya düşdüyünü qeyd edən Cənab Prezident İkinci Qarabağ müharibəsinin Ermənistan ordusunun tamamilə darmadağın edilməsi ilə nəticələndiyini və müzəffər Azərbaycan Ordusu öz doğma torpaqlarını azad etdiyini diqqətə çatdırıb: "Biz hesab edirdik ki, nəhayət bu, onlara dərs olacaq. Çünki Ermənistan ordusu tamamilə dağılmış vəziyyətdədir. Müharibə dövründə 10 min fərarisi olan ölkə müharibə aparmaq iqtidarında deyil, nə fiziki cəhətdən, nə mənəvi cəhətdən".

### "BU GÜNƏ QƏDƏR NƏİNKİ DƏHLİZ VERİLMƏYİB, HƏTTA DƏHLİZİN MARŞRUTU BİZƏ DEYİLMƏYİB"

Dövlət başçısı Azərbaycanın Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif etdiyini bildirərək, sözdə qəbul etsələr də əməldə bunu görmədiyimizi qeyd edib: "Yenə də vaxt uzatma taktikası. Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi. Hələ də tam çıxarılmayıb. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu bizə deyilməyib. Heç bir praktiki iş aparılmayıb. Biz isə indi dəmir yolunu Zəngilana qədər çəkmişik. Avtomobil yolunu Zəngilana qədər çəkmişik. Biz gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmir yolunu, həm avtomobil yolunu gətirəcəyik. Ancaq Ermənistan ərazisində heç bir iş görülmür və görünür ki, heç bir iş görmək istəmirlər. Yenə də vaxt uzadırlar".

Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatının müddəalarını kobud surətdə pozaraq avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətdilər. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərdilər. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürüldü. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdıldı, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirildi. Nəticədə qanunsuz erməni silahlılarının canlı qüvvəsi məhv edildi və yaralandı.

### "LAÇIN ŞƏHƏRİ, ZABUX KƏNDİ, SUS KƏNDİ, İLK NÖVBƏDƏ, YENİDƏN QURULACAQ"

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın həm döyüş meydanında, həm də diplomatik danışıqlar nəticəsində qazandığı zəfər tariximizə Qələbəmizi həkk etdi və bu hər birimizdə böyük qürur, fəxarət hissi yaratdı. Bu gün artıq Azərbaycan işğaldan azad olunan torpaqların abadlıq-quruculuq işlərinə start verilib. Artıq zəfər qazanmış Azərbaycan abadlıq quruculuq işlərini sürətlədirir. Bildiyimiz kimi, Laçın rayonu işğaldan azad olunandan iki ay ötməmiş burada Su Elektrik Stansiyası istismara verildi. Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyası idi. "Laçın şəhəri, Zabux kəndi, Sus kəndi, ilk növbədə, yenidən qurulacaq. Əminəm ki, biz buna tez bir zamanda nail olacağıq. Çünki Vətən müharibəsindən sonra bu günə qədər keçən dövr ərzində gördüyümüz işlər - genişmiqyaslı quruculuq və bərpa işləri göstərir ki, biz öz diyarımızı, Vətənimizi öz hesabımıza bərpa edirik və edəcəyik" - deyə Prezident diqqətə çəkib:"Şəhərin vaxtilə - 1980-ci illərdə tərtib edilmiş Baş Planı vardır. Bu, indi təhlil edilir, əlavələr olunacaqdır və Laçın şəhərini biz bərpa edəcəyik. Ümid edirəm ki, laçınlıların birinci qrupu Laçın şəhərinə gələn ilin sonuna qədər qayıda bilərlər. Mən buna ümid edirəm və əlimdən gələni edəcəyəm ki, biz buna nail olaq, tezliklə Laçın şəhərini bərpa edək. Biz bütövlükdə Laçın rayonunu və bütün başqa rayonları bərpa edəcəyik. İndi Azərbaycan xalqı görür ki, biz nəyə qadirik. Görür ki, biz müharibədə də qələbə qazanırıq, həyatda da qələbə qazanırıq və bizi güclü edən xalqın iradəsidir, xalqın birliyidir. Müharibədə də Zəfərimiz xalqın birliyi nəticəsində olmuşdur. Bu gün quruculuq-abadlıq işlərini apararkən bizi gücləndirən xalqın iradəsi, dəstəyidir. Bir daha demək istəyirəm, fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi dalğalanacaq! Biz burada əbədi yaşayacağıq! Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

***Zümrüd BAYRAMOVA***

# Ata vəsiyyətindən ZƏFƏRƏ!



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtı ilə işğal altında olan ərazilərimiz haqqında söylədiyi "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik. Təsəvvür edə bilmərik" fikirlərinə Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqımıza müraciətində dediyi "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" kimi dəyərli sözləri bir oğulun ata vəsiyyətini gerçəkləşdirməsinin qürurlu təsdiqidir.

Yaxşı ataların yaxşı oğulları

Mən həmişə yazılarımda yazmışam, yenə də yazıram: yaxşı ataların yaxşı oğulları olur. Cənab İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin mənəvi və siyasi varisidir. Əsl azərbaycanlı, xalqını canından artıq sevən, vətənpərvər insan olan, həyatının sonunadək bu xalqın, bu millətin yolunda çəkən ulu öndərimizin. Elə buna görə də xalq Onu özünə ümummilli lider seçdi. Taleyini Ona tapşırdı. Müstəqilliyini Ona etibar etdi. Beləliklə də müstəqilliyimiz təhlükədən, itirilməkdən xilas oldu. Torpaqlarımızın daha da geniş miqyasda itirilməsinin qarşısı alındı. Ölkəmiz dünyada tanındı, dünya dövlətləri ilə iqtisadi əlaqələr quruldu. 70 illik imperiya məngənəsindən qurtulan, bütün sahələrdə tənəzzülə uğrayan Azərbaycanda yeni bir Azərbaycan quruldu. Azərbaycan, bütövlükdə, ulu öndərimizin əsərinə çevrildi. Çox təbii ki, belə bir liderin övladı da cənab İlham Əliyev olacaqdı. Dövlətçilik qabiliyyəti, idarəetmə bacarığı, siyasi-hərbi savadı ilə dünyanın həsəd apardığı lider cənab İlham Əliyev.

Birinci Vətən Müharibəsi nə zamansa İkinci Vətən Müharibəsinin olacağına şübhə yeri qoymamışdı. Xalq bir gün öz əzəli torpaqlarını geri alacaqdı. Həmin günün ulu öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. Sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 gün... Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi an... 10 noyabr 2020-ci il. "Qarabağ" dastanının yazıldığı gün. Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixində yazdığı yeni salnamə...







## 44 gündə 30-dan artıq müsahibə

Cənab Prezidentimiz 44 gündə Azərbaycan tarixinə adı ilə bağlı bu sözləri yazdı: müharibə, müsahibə, müraciət. Ölkəmizin başçısı ordumuza Ali Baş Komandanlıq etməklə yanaşı, həm də dünyanın bizə qarşı yönəlmiş informasiya müharibəsinin qəhrəmanı oldu 44 günün hər anında. 44 gündə dünyanın ən məşhur kütləvi informasiya vasitələrinə 30-dan artıq müsahibə verən dövlətimizin başçısı Qarabağın tarixini, strateji əhəmiyyətini, əhalisinin vəziyyətini, 30 illik işğal dövrünü, həmçinin Qarabağla bağlı susan beynəlxalq təşkilatların mahiyyətini tarixi reallıqlarla dünyaya çatdırdı. Özünəməxsus nitqi, səbri, haqsız, ədalətsiz suallara hər dəfə eyni təmkinlə cavab verməsi, müxtəlif dillərdə sərbəst, qüsursuz danışıq qabiliyyəti ilə dünya siyasətçilərini və jurnalistlərini heyrətləndirən cənab İlham Əliyev bütün bunların fonunda Azərbaycanın necə bir dövlət olduğunu təsdiqləməklə yanaşı, ulu öndərin layiqli övladı olduğunu da sərgilədi.

Xalqına dəfələrlə müraciət etməsi ölkəmizin rəhbərini xoş xəbər müjdəçisi etdi insanların gözündə. 44 gündə torpaqlarımızın azad olunması ilə bağlı xəbərləri tək Ali Baş Komandandan almağımız bizim bir yumruq olduğumuzun, dövlətimizin başçısının ətrafında sıx birləşdiyimizin sübutu oldu. Azərbaycanda belə bir misal var: o yerdə ki, ağsaqqal var, orada Allah var. Ölkəmizdə 43 gün davam edən müharibənin 44-cü günü qələbə bəxş etdi millətimizə. Şiddətli döyüşlər getdi Qarabağ torpaqlarında. Şəhidlər verdik, ürəyimiz parçalandı, qazilərimiz oldu. Lakin bir-birinin ardınca torpaqlarımızı erməni nankorlarından geri aldıq. Füzulimiz, Zəngilanımız, Cəbrayılımız, Qubadlımız, Şuşamız, Ağdamımız, Kəlbəcərimiz, Laçınımız erməni tapdağından xilas edildi, hürriyyətinə qovuşdu. Azərbaycan Milli Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə dünyanı heyrətə gətirən döyüş taktikası həyata keçirdi.

## Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın bütün bölgələrinə böyük həssaslıqla, qədirbilənliklə yanaşırdı. Bütün bölgələrimizin tarixini çox gözəl bilirdi və bunu çıxışlarında, söhbətlərində dəqiqliklə qeyd edirdi. Bu söhbətləri dinlədikcə böyük şəxsiyyətin təfəkkürü, ensiklopedik yaddaşı qarşısında heyran qalırdı insan. Ulu öndər Şuşa ilə bağlı deyirdi: "...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar.

Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir."

Ata nəsihəti bütün dəyərli fikirlərində əks olunan dövlətimizin başçısı isə Şuşanın Azərbaycan tarixində xüsusi yerinin olduğunu vurğulayaraq demişdir: "Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik... O cümlədən Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməlidir, bərpa olunmalıdır, onların öz siması qaytarılmalıdır".







Ulu öndərimizin "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur" kimi dəyərli fikirləri nəinki öz siyasi və mənəvi varisinə, bütün xalqımıza bir vəsiyyət idi. Bu fikirdə ümumilikdə ölkəmizin ərazi bütövlüyündən söhbət gedirdi. Ulu öndər bütün xalqa bəyan edirdi ki, bir qarış belə torpaq olmadan bütöv Azərbaycan ola bilməz.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini gerçəkləşdirdi. Şuşasız Qarabağın, Qarabağsız Azərbaycanın ola bilməyəcəyini 44 gündə bütün dünyaya bəyan etdi. Böyük sərkərdəliyi ilə milli ordumuzun igidləri 44 gün ərzində böyük qələbələrlə irəliləyərək ərazi bütövlüyümüzü təmin etdilər. Torpaqlarımız bir-bir düşmənin çirkli əllərindən alındı və xalqımız Zəfər çaldı.

Dövlətimizin başçısı 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!"

## 44 günün təsdiqlədiyi məqamlar

İkinci Vətən Müharibəsi bir çox məqamları təsdiq etdi. Nəzər salaq:

- Ən birincisi, ata vəsiyyətini qeyd etmək istəyirəm. Cənab Prezidentimizin ulu öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu, hər bir gəncə nümunə gücündə olan, təsirli məqamdır.

- Ölkəmizin Prezidentinin 17 illik fəaliyyəti dövründə hər il bütün bayramlarda xalqımıza müraciətlərində Qarabağdan söhbət açıb, onun bir gün geri qaytarılacağını əminliklə söylədiyinin şahidi olmuşuq. Eləcə də beynəlxalq təşkilatların kürsülərində, xarici qonaqlarla görüşlərində eyni fikirlər hər dəfə səslənib. Bütün bunlar isə Prezidentimizin ötən 17 ildə söylədiyi sözlərin arxasında həm də bu sözlər dəyərində ordu quruculuğu prosesini uğurla həyata keçirdiyini, Ali Baş Komandanımızın sözlə əməl vəhdətini təsdiqlədi.

- Cənab Prezidentimizdə Azərbaycançılıqdan irəli gələn bir xarakteri də açıqca gördük. O, hər kəs kimi müharibə istəmirdi, qan tökülməsini, övlad itkisini istəmirdi. Bunu dəfələrlə Ermənistan siyasi rəhbərinə müraciətində gördük. "Torpaqlarımızdan çıxın, müharibəni dayandıraq", - dedi. Ermənilər bu mənəvi dəyərin nə olduğunu bilməsələr də, bu təklif onlara dəfələrlə edildi.

- II Qarabağ müharibəsi cənab İlham Əliyevin sayəsində bizim özümüzü tanımağımıza vəsilə oldu. Biz gördük ki, azərbaycanlılar nə qədər həmrəy, bir yumruq kimi birləşə bilən, eyni zamanda çox vətənpərvər bir xalqdır. Vətəninə, bayrağına sevdalıdır.

- Müharibə xalqın rəhbərinə inamını da nümayiş etdirdi. Tərtərdə, Bərdədə, Gəncədə evləri dağıdılan yüzlərlə insan Prezidentə arxalandıqlarını bildirdilər. Evlərinin dağılmasına, həyatlarının təhlükədə qalmasına baxmayaraq yurdlarını tərk etmədilər, qələbə əzmi ilə yaşadılar. Bu, rəhbərə inam, Onun arxasında olmaq deməkdir. Onlar bir də buna əmin idilər ki, evləri, həyətləri əvvəlkindən də gözəl vəziyyətdə onlara qaytarılacaqdır. Çünki bu insanlar cənab Prezidentimizin verdiyi sözlərə əməl etdiyinin şahidi olan insanlardır.

- Qarabağ müharibəsi onu təsdiq etdi ki, xalq-dövlət birliyindən güclü qüvvə ola bilməz. Elə bu qüvvə də qələbəmizin səbəbkarı oldu.

- Və son olaraq, Prezidentimizin illər öncə dediyi bu fikirlərini təsdiqlədi: "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin".

## 44 günlük Vətən müharibəsi şanlı tariximizdir

Artıq 2020-ci ilin 27 sentyabrında başlanan İkinci Vətən Müharibəsindən bizləri iki illik zaman fasiləsi ayırır. Artıq iki ildir ki, 30 il düşmən tapdağı altında inləyən əzəli torpaqlarımız azad edilib. İki ildir ki, əcdadlarımızın ruhu şad olub, onların uyuduqları torpaqlarımız azad nəfəs almağa başlayıb. Vətəni-anası Azərbaycanın doğma qucağına yenidən qismət olub.

Ötən iki il 30 ildə soydaşlarımızın evlərinə, torpaqlarına qayıtmaları üçün dövlətimiz tərəfindən böyük işlər həyata keçirilir. Bütün bu işlər doğma torpaqlarımızın sahiblərinin təhlükəsiz və rahat şəkildə yaşamalarına, tezliklə evlərinə qayıtmalarına xidmət edir. Artıq Böyük Qayıdış başlayıb. Zəngilanın Ağalı kəndinin sakinləri artıq doğma yurdlarında yaşayırlar. Yaxın gələcəkdə Böyük Qayıdışın daha yeni mərhələlərinin həyata keçirilməsi də planlaşdırılır.

Sentyabrın 27-də Prezident cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuliyə, oradan isə Şuşa şəhərinə səfərləri, səfər zamanı dövlətimizin başçısının söylədiyi dəyərli fikirlər həm kədərimizi, həm də qələbə sevincimizi təzələdi. Dövlətimizin başçısı şəhidlərimizi qürurla yad etdi: Bu gün Azərbaycanda Anım Günüdür. Bütün Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini yad edir. Allah bütün şəhidlərimizə rəhmət etsin. Şəhidlərimiz Vətən, torpaq uğrunda öz canlarını fəda etdilər. Biz öz şəhidlərimizlə fəxr edirik. Qəhrəman əsgər və zabitlərimizlə fəxr edirik. Şəhidlərimizin qanı yerdə qalmadı, biz şəhidlərimizin qanını aldıq. Döyüş meydanında qisasımızı aldıq. Doğma torpaqlarımızı düşməndən azad etdik, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.

Həmin çıxışla o günlərə qayıtdıq bir anda. Füzulidən mücadiləyə başladıq. Dövlətimizin başçısı: 44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib yumruq kimi birləşərək düşməni doğma torpaqlarımızdan qovdu. Bütün Azərbaycan xalqı birlik, iradə göstərmişdir. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub-yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda, fəxr edirik ki, biz - bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq. Şəhidlərimizin şərəfinə bu abidə - bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılıb. Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edilmişdir. Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı - Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri - Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında, ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli Bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın. Bu istiqamətdə düşmənin birinci müdafiə xəttini yararaq bizim Zəfər yürüşümüz başlamışdır. 44 gün ərzində Azərbaycan Ordusu hər gün irəliyə gedirdi. Dayanmadan, durmadan, usanmadan hər gün qan tökərək, şəhidlər verərək irəliyə gedirdi, Zəfərə doğru gedirdi. Bir gün belə dayanmadı, bir gün belə geriyə addım atmadı, ancaq irəli getdi, düşməni qova-qova döyüş meydanında tarixi Zəfər çaldı. 44 gün ərzində 300-ə yaxın şəhər və kənd düşməndən azad edilmişdir. Düşmən məcbur olub kapitulyasiya aktını imzalayaraq məğlubiyyətini qəbul etdi və o vaxt hələ işğal altında olan torpaqlardan çıxmağa məcbur olmuşdur.

Ölkəmizin başçısı çıxışında torpaqlarımızın işğaldan azad edilməsinin məhz bu nəslin üzərinə düşməsini yüksək qiymətləndirərək deyib: Biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya bizim üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləriyik, həm də iştirakçılarıyıq. Bizdən sonra gələn nəsillər həmişə bu şanlı tarixlə fəxr edəcəklər. Biz fəxr edirik ki, bu torpağın övladlarıyıq. Fəxr edirik ki, döyüş meydanında öz haqqımızı bərpa etdik, düşməni məğlub etdik və bundan sonra biz müzəffər xalq kimi, qalib ölkə kimi əbədi yaşayacağıq.

Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır.

"Bir daha şəhidlərimizə rəhmət diləyərək qeyd etməliyəm, bildirməliyəm ki, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır",- deyən Prezidentimiz, Ali Baş Komandanımız, Sizinlə qürur duyuruq! Siz Azərbaycanın 300 min illik sərkərdəsi, qəhrəmanı oldunuz. Səfəvilər dövlətindən sonra işğal edilən torpaqları azad edən ilk lider oldunuz. Tarix Sizin adınızı şanlı səhifələrinə yazdı. Bu tarix vərəqləndikcə orada Siz daim var olacaqsınız. Ata vəsiyyətinə sadiqliyiniz, o vəsiyyəti gerçəkləşdirməyiniz neçə-neçə nəsillərə nümunə olacaq.

Sizinlə qürur duyuruq, Milli Ordumuz! İgid oğullarımız, mərd övladlarımız! Siz bu qələbəni qanınızla, canınızla yazdınız tariximizin səhifələrinə.

***Mətanət Məmmədova***

# Yağı düşmən dost olmaz










***Biz ulularımızdan, ata-babalarımızdan yetərincə nəsihətlər almışıq və yağı düşmənin dost ola bilməyəcəyi barədə deyilənlər öz təsdiqini tapmaqdadır. "Yağı düşmən dost olmaz", deyə bizə nəsihət, 1300 il bundan əvvəl xalqımızın qəhrəmanlıq tarixini, onun müdrikliyini, milli mədəniyyətini əks etdirən, canlı tarix hesab edilən "Kitabi-Dədə Qorqud" dastanında edilib. Eyni ilə Qazan xanın el-obasını talan edən, yağmalayan, qız-gəlinlərini əsir aparan, həmin o "Kitabi-Dədə Qorqud" dastanından tanıdığımız əzəli və əbədi düşmənlərimiz olan Şöklü Məliyin vəhşi təbiətli nəvə-nəticələrinin öz havadarlarının köməyi ilə dəfələrlə üstümüzə hücum çəkdiyinin şahidi olmuşuq, namərdliyinə bələdik və düşmənimizi də, onun xislətini də unutmağa haqqımız yoxdur.***

Düşmən bizə qəfil, namərd həmləsi etsə də, buna hazır olmalıyıq. "Kitabi-Dədə Qorqud" kimi müdrik bir dastanımız, bu dastanda adı çəkilən Beyrək, Basat, Qazan xan, Buğac, Qarabudaq, Dəli Domrul kimi yenilməz xalq qəhrəmanlarımızın ruhu bu zamana qədər bizə daim ruh verib, bizi, bütün qüvvələrimizi səfərbər edib, qələbə, zəfər çalmağa çağırırdı və biz bir xalq olaraq birləşib, müzəffər Ali Baş Komandanın rəhbərliyi, Azərbaycan Ordusunun şücaəti, rəşadəti ilə bu çağırışa cavab verdik, şəhidlərimizin, qazilərimizin qanı, canı bahasına yağı düşmən üzərində qələbə qazandıq, Zəfər əldə etdik. İndi artıq adı çəkilən dastanımızın xalq qəhrəmanlarının deyil, həm də şəhidlərimizin ruhu qarşısında borcluyuq və yağı düşmənə fürsət verməmək, vətənimizi, torpaqlarımızı qorumaq bundan sonra bizim ən ümdə vəzifəmiz, şəhid ruhları qarşısında borcumuzdur.

"Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın", deyə cənab Prezident İlham Əliyev Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 sentyabr - Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önündə çıxışı zamanı ciddi mesajlar ünvanlayıb. Bu mesajlar düşmən tərəfə ünvanlansa da, ölkə rəhbərinin çıxışı bizlər üçün də bir xatırlatmadır. Biz artıq tarix boyu yağı düşmənin xain hərəkətlərinin, xəlvəti şəkildə, özü də namərdcəsinə etdiyi hücumlarının şahidiyik və bunu yaddan çıxarmamalıyır. "Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq", deyən Ali Baş Komandan, cənab Prezident İlham Əliyev hər bir Azərbaycan vətəndaşını bundan sonra ayıq-sayıq olmağa, vətənimizi, yurdumuzu, torpaqlarımızı düşmənlərdən qorumaq üçün hər zaman hazır olmağa, bundan sonra düşmənin başını qaldıraraq ölkəmiz üçün hər hansı təhdid yaratmasına imkan verməməyə çağırıb. Bir sözlə, çağırışdan da bəlli olur ki, düşmən öz xislətini göstərməkdə davam edir, elə düşmən olaraq da qalır və biz ən azından bu zamandan etibarən bunu heç vaxt unutmamalıyıq.

Təəssüf ki, tarix boyu yağı düşmənin etdikləri unudulub və bundan istifadə edən namərdlər də öz mənfur əməllərini həyata keçirmələri üçün münbit şərait, imkan tapıblar. Elə Şöklü Məliyin Oğuz elinin başına gətirdiyi müsibətlər bizə kifayət etməli idi ki, nəticə çıxarılsın və düşmənin başını qaldırmasına imkan verilməsin. Dədəmiz Qorqud da bunu tövsiyyə edirmiş və yağı düşmənin dost olmayacağı barədə əvvəlcədən bizi xəbərdar edirdi ki, həmin o namərd düşmən başımıza müsibətlər gətirməsin. Axı o həmin Dədə Qorqud idi ki, qeybdən xəbərlər gətirirdi və onun dedikləri bizim yaddaşımıza həkk olunmalıydı və tövsiyələri də yaddan çıxmamalı idi. Əlbəttə ki, yağı düşmən barədə deyilənlər doğru oldu və zaman-zaman xalqımızın müsibətlər yaşaması bunun təsdiqidir. Elə ona görə də bundan sonra Ali Baş Komandanın, cənab Prezidentin məhz Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 sentyabr - Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önündə çıxışı zamanı etdiyi tövsiyəsini unutmamalıyıq ki, yağı düşmən başımıza bundan sonra müsibətlər gətirə bilməsin və bunun üçün həqiqətən də düşmənin başını qaldırmasına, bizi təhdid etməsinə imkan verilməməlidir.

Ötən əsrin əvvəllərində erməni daşnaq birləşmələrinin Azərbaycan torpaqlarına hücum çəkməsi, xalqımızın başına müsibətlər gətirməsi, soyqırım törətməsi, mülki əhaliyə qarşı divan tutması, vəhşiliklərə imza atması yaddaşlardan silinməməli idi. Cəmi iki-üç gün ərzində minlərlə azərbaycanlının həyatına son qoyan, özü də onları vəhşicəsinə qətlə yetirən erməni daşnaqlarından yurdumuz təmizlənsə də, cənab Prezidentin tövsiyəsində qeyd olunduğu kimi, gərək onlara bir də baş qaldırmaları üçün imkan verilməyəydi ki, ölkəmiz, xalqımız üçün təhdid yarada bilməsinlər. Qocaları, uşaqları, hamilə qadınları süngüdən keçirən, insanları diri-diri yandıran, diri-diri basdıran vandalları torpaqlarımızdan qovsaq da, arxayınlaşmamalıydıq və qoymamalıydıq ki, bir də baş qaldırsınlar. Müsəlman dini mənsubiyyətli əhalini xüsusi amansızlıqla qətlə yetirənlərdən sonralar da eyni vəhşilik, eyni vandallıq gözlənilməli idi və bunun üçün baş qaldırmalarına imkan verilməməli idi. Əlbəttə ki, əks halda elə həmin o ötən əsrin sonlarında da müsibətlərlə qarşılaşmalı, yağı düşmənin namərdcəsinə ərazilərimizə basqın etməsinə, Qarabağ və ətraf ərazilərində amansızcasına soyqırımlar törətməsinə, xüsusilə Xocalı faciəsi kimi, insanlıq dramını törətməsinə şahidlik etməli idik və belə də oldu.

Sözsüz ki, yağı düşmənin hər zaman fürsət gözlədiyi ötən əsrin sonlarında da özünü bir daha göstərdi. Sövet imperiyasının əsarətindən yenicə qurtaran, müstəqilliyini, suverenliyini yenidən bərpa edən Azərbaycanda hökm sürən xaosdan, səriştəsiz hakimiyyətin olmasından, yaxud hakimiyyətsizlikdən namərdcəsinə istifadə edən yağı düşmən, eyni ilə əcdadı Şöklü Məliyin "ənənəsinə" sadiq qalaraq, torpaqlarımıza soxuldu. Eyni ilə öz əcdadı kimi, torpaqlarımızı yağmaladı, silahsız dinc əhalini, qız-gəlinləri əsir götürdü, apardı və hələ də taleləri bəlli deyil. Hələ də Bəybura kimi ataların timsalında valideynlərin çoxu öz övladlarının, Beyrək misalında öz oğullarının yolunu gözləyirlər. Hələ də ağlamaqdan gözləri tutulan ata-analar var ki, erməni zülmünün qurbanı olan balalarının itgisi səbəbindən əzab çəkirlər. Bütün bunların baş verməməsi üçün vaxtında ayıq-sayıq olmaq, ölkə rəhbərinin qeyd etdiyi kimi, yağı düşmənin baş qaldırmasına imkan verməmək lazım gəlirdi ki, ölkəmizə qarşı hərhansı təhdidlər yarada bilməsin, amma görünür düşmən baş qaldıra bilib ki, təhdid də yaradıb, üstəlik qırğınlar da törədib.

Artıq xalqımız üçün, Azərbaycan xalqı üçün yağı düşməndən dost olmayacağını təsdiq edən yetərincə nümunə və təsdiqedici faktlar var. İki əsrdir ki, Azərbaycan xalqı erməni vandalizmindən, terrorundan, separatçılığından əziyyət çəkir. Uzun zamandır ki, Şöklü Məliyin varislərinin, hayların qondarma "Böyük Ermənistan" adlı sərsəm iddiaları Cənubi Qafqazda sülhə, əmin-amanlığa mane olur və ermənilərin özlərindən də olmaqla, bunun acısını minlərlə, on minlərlə insan çəkib. Hələ də Oğuz elinin digər torpaqlarında gözü olan hayların dinc oturmayacağı təkzib edilə bilməz. Hazırda həmin o hayların "başbilənlərinin" dünyanın bir çox inkişaf etmiş dövlət başçılarının ətəyindən yapışması, yalvarması, bölgədə qarışıqlıq yaratmaq üçün əldən-ayaqdan getmələri deyilənləri təsdiq edir. Təsdiq edir ki, hayların məkri hələ bitib-tükənən deyil və namərd hərəkətləri hər an gözləniləndir. Rusiyadan, böyük rus qardaşlarından əlləri üzülən hayların Qərbdə özlərinə yeni ağa axtarmaları, indi də ABŞ kimi bir dövlətin və bu dövlətin rəsmilərinin ayaqları altına sərilmələri bunu deməyə əsas verir ki, erməni xisləti olduğu kimi qalıb, məkri də öz yerindədir və deməli, cənab Prezidentin də vurğuladığı kimi, qoymamalıyıq ki, onlar baş qaldırsınlar və bizim üçün təhdid yaratmalarına da imkan verməməliyik. Çünki həqiqətən də, düşmən elə düşmən olaraq qalır və yağı düşmən də heç zaman dost olmaz.

**İnam Hacıyev**

ARAŞDIRMA

# Yaşıllıqların bərpası istiqamətində hansı işlər aparılır?

*Müasir qlobal ekoloji böhran şəraitində ekoloji siyasət istənilən dövlətin ümumi siyasətinin vacib tərkib hissəsini təşkil edir. Beynəlxalq ictimaiyyət bütün növ meşələrin davamlı idarə edilməsini, meşələrin qırılmasının dayandırılmasını, deqradasiyaya uğramış meşələrin bərpasını və meşələrin salınması üzrə fasiləsiz işlər aparır.*



1990-cı ildən bəri meşə sahələrinin kəskin dərəcədə azaldığını nəzərə alaraq, 2030-cu ilə qədər meşə sahəsini 3 faiz artırmaq məqsədi ilə Birləşmiş Millətlər Təşkilatı plan hazırlamışdır. Lakin mütəxəssislər həmin plana çatmaq ehtimalının az olduğunu qeyd edirlər. Meşə massivləri 1990-cı illərdə ildə 7,8 milyon hektar, 2010-2020-ci illərdə ildə 4,7 milyon hektara qədər azalmaqdadır. 1990-2020-ci illər arasında qlobal meşə sahəsi 178 milyon hektar azalıb ki, bu da təxminən Liviya ölkə ərazisinin ölçüsünə bərabərdir.

Qardaş ölkə Türkiyə abadlıq işlərinə görə Avropada birinci, dünyada isə altıncı yerdədir. Meşə sahələrinin sayının artırılması, mövcud meşələrə qulluq göstərilməsi, şəhərətrafı ərazilərdə və yaşayış məntəqələrində yaşıllıq sahələrinə qulluq göstərilməsi işləri qanunla, milli proqramla və ayrı-ayrı layihələrlə tənzimlənir.

Qlobal Meşə Resurslarının qiymətləndirilməsinin beynəlxalq hesabatına əsasən, Türkiyə 2015-ci ildə dünyada 46-cı, 2020-ci ildə ölkənin yaşıllaşdırılması istiqamətində görülən işlərin səviyyəsinə görə 27-ci yerdə olub. Hətta 2019-cu ildən 11 noyabr Türkiyədə Milli Meşələrin Bərpası Günü elan edilib.

Türkiyə ilk "meşə məcəlləsi"ni 1937-ci ildə qəbul etmişdir. Sənəd meşələrin mühafizəsi, səmərəli istifadəsi və meşə sahələrinin artırılması strategiyasını müəyyən edir. Rəsmi məlumatlara görə, 1973-cü ildə meşə sahələri 20,2 milyon hektar, 2005-ci ildə 21,2 milyon hektar, 2020-ci ildə 22,9 milyon hektar (ölkənin ümumi sahəsi 783,6 min km2) təşkil etmişdir. Son 18 ildə Türkiyədə meşə fondları 2,1 milyon hektar artıb. Müəyyən edilmiş hədəf Türkiyənin 100-cü ildönümünü ilə əlaqədar qeyd edəcəyi 2023-cü ildə ölkənin ümumi ərazisinin 30%-nə bərabər olan 23,4 milyon hektar meşə sahəsinə çatmaqdır.

Rusiyada "Meşələrin Mühafizəsi" federal layihəsi çərçivəsində fəaliyyətlər ümumi sahəsi 1,25 milyon hektar olan ərazilərə meşə bərpa işləri aparılır. Bu il 213 min hektar sahədə meşəbərpa işləri aparılıb. Ən böyük işlər Uzaq Şərq regionları - 45 min hektar, Şimal-Qərb Federal Dairəsi - 38 min hektar, Volqaboyu - 35 min hektar, Mərkəzi Federal Dairəsi - 34 min hektar və Sibir - 31 min hektar üçün nəzərdə tutulmuşdur.



## Bəs ölkəmizdə meşələrin salınması və bərpası ilə bağlı hansı işlər görülür?

1970-ci ilədək Bakı şəhərində 3 min hektara qədər yaşıllıq sahəsi mövcud idisə, Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi həmin illərdə yaşıllıqların sahəsi 17 min hektara çatdırılmışdı. Bu dövrdə ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunmasına dair 8 qanun qəbul olunmuş, hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin reallaşdırdığı ekoloji siyasət strategiyası müstəqil Azərbaycanın ekoloji siyasətinin təməlidir. Heydər Əliyevin uğurla başladığı bu strateji xətti onun layiqli davamçısı və siyasi varisi, Azərbaycan dövlətinin başçısı cənab İlham Əliyev zənginləşdirərək yeni keyfiyyət səviyyəsində böyük vüsətlə davam etdirdi. Müxtəlif vaxtlarda icra olunan ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə etməklə, ümumilikdə ölkəmizin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına böyük töhfələr verdi.

Son 10-15 ildə paytaxtda və regionlarda yaşıllaşdırma, abadlaşdırma, parksalma işləri daha qabarıq şəkildə özünü göstərir. Son beş ildə Bakı və onun ətraf qəsəbələrində 65 yeni mədəniyyət və istirahət parkı salınıb.

Bütün görülən işlərə baxmayaraq ölkədə yaşıllıqların kifayət qədər olmaması ən öndə gedən problemlərdən biri olaraq qalmaqdadır.

Azərbaycan meşə ehtiyatlarına görə Cənubi Qafqazda ən az meşə sahələrində malik olan ölkələrdən biridir. Qonşu Gürcüstanda 39 faiz, Ermənistanda 35 faiz , Türkiyədə 35 faiz, Rusiyada 45 faiz Azərbaycanda isə cəmi 11 faiz meşə sahələri təşkil edir. Ümumi meşə ilə örtülü olan ərazilərin sahəsi 1 milyon hektardandan artıqdır. Və bu meşə örtüyü ölkədə bir nəfər üzrə hesablayanda 0,014 hektar düşür, dünya üzrə ən minimal nəticə 0,4 hektardır.

Bakı şəhəri üzrə cəmi 5 faiz, dünya üzrə bu hal 20/25 kv metrdən yüksəkdir. Şəhərlərimizdə yaşıllıq əraziləri həddindən artıq azdır. Bu da havanın çirklənməsinin qarşısını ala bilmir, çirklənmə yüksək olur, müxtəlif xəstəliklərin bronxial asma, ürək damar xəstəliklərin yaranmasına, nəfəs orqanların xəstələnməsinə səbəb olur. Son dövrlərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi müəyyən meşə bərpa işləri aparıldığını bəyan edib. Hətta faktiki olan meşələrində də azalma halları baş verir. Xüsusilə avqust ayında güclü küləklərin əsməsi səbəbindən və digər səbəblərdən meşə yanğınları baş vermişdir, Azərbaycan meşə ilə örtülü Şimali Qafqaz dağları Quba, Xaçmaz, Şabran, Siyəzən rayonunda rəsmi məlumatlara görə, 5 min hektardan artıq ərazidə yanğın baş vermişdir. Bu ərazilərə eyni zamanda Şamaxıda Pirqulu meşəsi də daxildir. Yanğınlar Zaqatala, Şəki zonasında da davam edib.

## Meşələrin artırılması niyə vacibdir?

Hər birimiz bilirik ki, insan oksigen olmasa yaşaya bilməz. Oksigeni bizə təminat verənlərdən ən böyüyü meşə sistemidir. 1 ağac təxminən il ərzində 100 kq qədər oksigen verir və 40 kq qədər karbon qazını udur. Bunu müqayisə etsək bir insan il ərzində təxminən 700 kq qədər oksigen udur, deməli 6/7 ağac bir insanı oksigenlə təmin edə bilər. Normal ağac bir ailəni oksigenlə təmin etmək gücünə malikdir. Azərbaycanda ən az meşə örtüyü olan Aran zonasıdır ki, ölkənin kənd təsərrüfatı sahəsinin ən çox inkişaf etdiyi ərazilərdən sayılır. Burada da zamanında Kür çayı boyunca Tuqay meşələri olub. Bakı şəhəri üzrə son 10 ilin tədqiqatına görə sənayeləşdirmənin nəticəsidir ki, min kv.km hektara qədər ərazi məhv edilmişdir. Xüsusilə Bakı şəhərinin əhalinin gur yaşadığı yerlərdə Neftçilər, Azadlıq metrosu ətrafında, Ayna Sultanovanın ətrafında Səbail rayonunun Bayıl və Badamdar qəsəbələrində meşə motivləri qırılaraq yerində müxtəlif obyektlər tikilmişdir.

Dünya üzrə təxminən 4 milyard hektara yaxın meşə ərazisi var. Onlar əsasən Cənubi Amerika, Rusiya Braziliya, Kanada, ABŞ-dakı digər ərazilərdədir. Ən çox meşə əraziləri dünyanın ağciyərləri hesab olunan Amazon meşələrinin özündə də krizis var və xeyli qırılma gedir. Əhalinin artımı ilə bağlı əkin sahələrin salınması nəticəsində meşələr qırılır. Qlobal istiləşmənin yaranmasının bir səbəbi də karbon qazının atmosferdə artmasıdır ki, bunun nəticəsində günəş şüaların geri qayıtması prosesi baş verir və nəticədə torpağa günəş enerjisi kifayət qədər çatmadıqda inkişaf prosesləri ləngiyir. Bu da insanlarda müxtəlif xəstəliklərin yaranmasına gətirib çıxarır.

Respublika ərazisində yaşıllıqların salınması istiqamətində İdeya İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşəbbüsü ilə yerli İcra Hakimyyəti orqanları və Bələdiyyələrin iştirakı ilə respublika ərazisində son illərdə genişmiqyaslı yaşıllıq sahələri yaradılmışdır. Bu tendensiya hal-hazırda da davam edir. Misal olaraq regional meşə təsərrüfatı mərkəzlərinin illik hesabatlarında meşə əkini sxemləri ilə, meşə uçotları ilə bunlar öz əksini tapır. Yanğınlar nəticəsində tələf olmuş yaşıllıqların bərpası meşə fondu torpaqlarında xüsusi mühafizə olunan təbiət ərazilərində meşə bərpa tədbirlərinin köməyi ilə həyata keçirilir. Qeyri meşə fondu torpaqlarında isə yaşıllıqların bərpası qaydasına uyğun olaraq yaşıllıqlar götürülür və hər birinin yerində əlavə yaşıllıq əraziləri yaradılır. Ümumiyyətlə son illərdə respublika ərazisində ağacların kütləvi quruması iynəyarpaqlılar, şam və sərv ağacların quruması müşahidə olunur. Ən çox kütləvi şəkildə quruyan ağaclar Xəzər rayonu ərazisində, xüsusilə Mərdəkan qəsəbəsində müşahidə olunmuşdur. Bununla yanaşı Nərimanov, Binəqədi rayonu ərazilərində, daha çox Qaradağ rayonu ərazisində kütləvi qurumalar müşahidə olunur ki, onların da götürülməsi, yaşıllıqların götürülməsi qaydasına uyğun olaraq həyata keçirilir. Hal-hazırda xəstəliklərə yoluxmuş ağacların götürülməsi və onların filtrizasiyası yerinə yetirilir və nəticədə ərazi dərmanlanaraq su preparatlarla, kimyəvi vasitələrlə təmizlədikdən sonra həmin ərazilərdə yeni ağac tinglərinin əkilməsi həyata keçirilir və hal-hazırda da əkilməsinə ehtiyac vardır.

***Havar Şəfiyeva***

# "Azərbaycan BMT qətnamələrini özü təkbaşına icra edib"

***- Anar müəllim, Paşinyan BMT Baş Assambleyasında təxribat xarakterli çıxışlar edib. Bu təxribatlarla nə demək istəyir?***

- Paşinyanın BMT Baş Assambleyasının 77-ci sessiyasındakı Azərbaycana qarşı etdiyi çıxışları dünyada özünə hörmət edən heç bir siyasi-ictimai mənsubiyyəti olan şəxs normal qəbul edə bilməz. Bu adam dərk etmək istəmir ki, bu gün bütün dünyada mövcud beynəlxalq hüquq normalarına uyğun olaraq Ermənistan 30 ilə qədər işğalçı olaraq Azərbaycan torpaqlarını qanunsuz işğalda saxlayıb. Qəbul edilmiş BMT qətnamələrinin olmasına baxmayaraq beynəlxalq hüquq normalarına məhəl qoymayaraq Azərbaycan torpaqları işğalda saxlanılıb, şəhər və kəndlərimiz dağıdılaraq yer üzündən silinib. Azərbaycan dünyanın apardığı ikili standartların mövcudluğunu nəzərə alaraq BMT qətnamələrini özü təkbaşına icra edib. 44 günlük müharibə nəticəsində öz ərazilərini işğaldan azad edib. Heç bir beynəlxalq yardım almayıb. Yalnız qardaş Türkiyə və Pakistan dövlətlərindən mənəvi-siyasi dəstək alıb. Paşinyanın ağlı işğal dönəmindəki havadarlarının dəstəyinə gedib. Amma bu adam dərk etmək istəmir ki, dünya dəyişib. Məhz bu gün, dünyada gedən mübarizələr fonunda beynəlxalq aləm daha ədalətli olmağı düşünür. Kimliyindən asılı olmayaraq ədalətsiz mövqelərin yanında olmaqdan çəkinirlər. Paşinyan bunu dərk edib özü nəticə çıxarmalı 10 noyabr Aktının tələblərinə riayət etməlidir. Yoxsa boş-boş erməni hay-küyü ona kömək etməyəcək və heç kimi buna inandırmağa nail olmayacaqdır.

***- Paşinyan iddia edir ki, Azərbaycan sülh istəyirsə Ermənistanın ərazisini tanıdığını bəyan etsin. Bununla bu nə demək istəyir?***



**Müsahibimiz Qaçqınların və Məcburi köçkünlərin işi üzrə Dövlət Komitəsi yanında ictimai şuranın sədri Anar Xəlilovdur**

- Paşinyan BMT tribunasından həyasızcasına deyir ki, Azərbaycan Ermənistanın ərazi bütövlüyünü tanısın sülh müqaviləsi imzalansın. Doğrudan da normal insan, özünə hörmət edən siyasətçi bu sözü işlətməz. Utanar, ən azı çıxış etdiyi tribunadan ar edər. 30 il torpaqları işğalda saxla, müharibə ilə onu azad edib səni acı məğlubiyyətə uğradan, ordunu məhv edən ölkəyə ərazi bütövlüyümü tanı iddiası ilə ittiham irəli sür. Dünya siyasətində bu cür erməni həyasızlığı hələ heç quldarlıq quruluşunda da olmayıb. Bu adam normal siyasətçi olsa heç olmasa bilərdi ki, Ermənistan deyilən ölkə çar Rusiyasının hesabına bolşeviklərin hədiyyəsi ilə tarixi Azərbaycan torpaqlarında yaradılan əldəqayırma bir dövlətdir.

***- Paşinyan həm də iddia edir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazırdır. Necə hesab edirsiniz, tanıdığı halda Qarabağın da Azərbaycan ərazisi olduğunu bəyan edəcəkmi?***

- Ermənistan məğlub tərəf olaraq Azərbaycanın ərazi bütövlüyünü tanımağa məhkumdur. Sadəcə, bu gün xarici havadarları bunu etməyə onlara imkan vermir. Buna görə də sərhəddə erməni təxribatları ara vermir. Eyni zamanda, Paşinyan nala mıxa vurmaqla məşğuldur. Bu adam səhər bir söz deyir, axşam gizlənib sosial şəbəkələrdə başqa dil çağırır. Tam idarə olunan, əldəqayırma bir siyasətçi olduğunu hər gün təsdiq edir. Paşinyan 10 noyabr aktını imzalamaqla Qarabağın Azərbaycanın ərazisi olduğunu təsdiq edib. Sadəcə, qalıb məsələnin siyasi və hüquqi tərəfi ki, rəsmi surətdə bunu bəyan etsinlər. Ayrı yolları da yoxdur, bunu gec və ya tez edəcəklər. Nə qədər tez etsələr, bu, erməni xalqının xeyrinədir. Əks halda daha da ağır vəziyyətdə qalacaqlar. Azərbaycanın tarixi haqqı çatan əraziləri daha böyükdür, amma bugünkü dünyanın hüquq müstəvisində tanıdığı ərazisi birdir ki, oraya Qarabağ mübahisəsiz daxildir. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə elə Paşinyanın çıxış etdiyi BMT-nin tanıdığı ərazilər daxilində tanınmalıdır. Cənab Prezident demişkən: "Bu, müzakirə mövzusu deyildir". Mən belə hesab edirəm ki, bu gün müzakirə mövzusu Qərbi Zəngəzurdur artıq... Paşinyan bizim ərazimizi tanımaq istəmirsə, öz problemidir. Tanıyana qədər haqqımız tam çatır ki, İrəvana qədər gedək.

***Gülyana***

# Bu torpağın qara daşı göyərdi!



**Nə bu ocaq közərəsi,sönəsi,**
**Nə o günlər bir də geri dönəsi...**
**Qəm eləmə könlümün bir dənəsi,**
**Bu dünyanın qara daşı göyərməz.**
**(Musa Yaqub)**
**Vətən!**

Tək kəlmədir, amma çox şey deməkdir. Gəzdiyimiz torpaqdır Vətən, ciyərimiz olan meşələrdir, suyumuz olan çaylardır, qoruduğumuz bayraqdır. Doğulduğumuz, ayaq basdığımız, yaşadığımız, ömür sürdüyümüz və öldüyümüz torpağa deyirik Vətən. Onu yağış da sulayanda, qan da çilənəndə Vətəndir. Uğruna öldüyümüz, şəhid verdiyimiz Vətən. Sadəcə torpaq deyil, insanın namusu, şərəfi, anasıdır.

30 ildən sonra o torpaqlara ayaq basan əsgərlər, zabitlərdir Vətən. 30 ildən sonra doğma təmas hiss edən o torpaqlardır Vətən. 30 il həsrət çəkən o meşələr, o dağlar, o çaylardır vətən. Vətən kəlməsi bu coğrafiyanın insanları üçün adi söz deyil. Ona olan sevgimiz bitməz-tükənməzdir, dəyişilməz, əvəzedilməzdir. Nəsildən nəsilə ötürdüyümüz böyük bir vəfadır, tükənməz eşqdir vətən sevgisi. Övladlarımızın simasındakı sevinc, başlarının üstündəki aydın səmadır. Analarımızın şəhid tabutu önündə "Vağzalı" çaldırması, atalarımızın "Təki vətən var olsun", igidlərimizin qanı bahasına alınan zəfərdir, sevdiklərinin vaxtsız ağaran saçlarıdır Vətən sevgisi.

Səbail rayonunda yerləşən, Bakının ən köklü məktəblərindən olan 162 saylı orta məktəbdə bu sevgi bu gün təkrar aşılandı. İl boyu öyrəndikləri vətən,torpaq sevgisini şagirdlər bu gün Şəhidlərin Anım Lövhəsi önündə bir də xatırladılar.

Məktəb öz məzununun, Birinci Qarabağ Müharibəsi şəhidi Etibar Əliyevin adını daşıyır. Vətən Müharibəsində isə 162 saylı məktəb 4 məzununu şəhid verdi. Məktəbin əvvəlki illərdən olan məzunları Bilal Qəmbərov, Əli Tağıyev, İsmayıl Hüseynov, Cavidan Ağayev döyüşlərdə şücaət göstərərək qəhrəmanlıqla şəhid oldular.

Məktəbdə keçirilən Anım Günü tədbirində direktor Arzu Nəzərova şagirdlərə 27 Sentyabr gününün tarixindən, qələbəni əldə edərkən yaşanılan çətinliklərdən, zəfər üçün aparılan mübarizədən danışdı. Direktor Anım Günündən Zəfər Gününədək uzanan 44 uzun gündən, 44 qaranlıq gecədən söhbət açdı, qələbəyə gedən yolda öz canını fəda edən igidlər barədə danışdı, məktəbin şəhid məzunlarının qəhrəmanlıqları barədə xatirələrini paylaşdı.

Məktəbin ibtidai sinif müəllimləsi Esmira İsmayılovanın şagirdləri şəhidlərin barelyefi önündə şeirlər səsləndirdilər, şəhidlərin xatirəsinə həsr etdikləri yazı nümunələrini oxudular. Esmira müəllimə öz şagirdlərinə vətən sevgisini o qədər mükəmməl aşılayıb ki, hələ 7-8 yaşı olan bu fidanlar öz sinələrində şəhidlərin şəkli əks olunmuş nişanlar gəzdirirdilər. Tədbirdə şəhidlərin ailə üzvləri, qazilər, valideynlər də iştirak edib. Tədbir şagirdlərin hazırladığı bədii hissə ilə davam edib. Məktəbin şagirdləri şəhidlərin xatirəsinə hazırladıqları şeirləri səsləndirdilər. Vətənin balaca vətəndaşları onların azadlığı, əmin-amanlığı uğrunda öz canlarını fəda edən şəhidlərə öz minnətdarlıqlarını belə ifadə etdilər.

Biz vətən uğrunda qanı ilə dastanlar yazan, tarixi boyunca vətən uğruna can verən bir millətin övladlarıyıq. Lazım olduğu zaman vətən uğrunda savaşmaq vətən sevgisinin təzahürüdür, biz bu sevgini iliklərimizdə daşıyırıq. Sevgi nələrə qadir deyil ki?! Olmazları olduran, mümkünsüzləri mümkün edən sevgi deyilmi? O sevgidən vətənin yarım qalan hissəsi bütövləndi, o sevgidən boz çöllər yaşıllandı, o sevgidən vətənin qara daşı belə göyərdi. Ömründən pay verən oğullar vətəndən pay vermədi...

***Lalə Mehralı***

# "AzerTelecom" və "Kazakhtelecom" TransXəzər layihəsi üzrə strateji tərəfdaşlıq haqqında memorandum imzalayıb

Astana şəhərində baş tutan "Digital Bridge" beynəlxalq texnoloji forum çərçivəsində Azərbaycanın və Qazaxıstanın aparıcı telekommunikasiya şirkətləri "AzerTelecom" və "Kazakhtelecom" Xəzər dənizinin dibi ilə Fiber-Optik Rabitə Xəttinin çəkilməsi layihəsi üzrə strateji tərəfdaşlıq haqqında memorandum imzalayıblar. Tərəflər əmindirlər ki, sənəd hər iki ölkənin rəqəmsal infrastrukturunun inkişafı sahəsində gələcək əməkdaşlıq üçün stimul rolunu oynayacaq, əlçatanlıq baxımından yeni bazar imkanlarının, eləcə də iki ölkədə şəbəkələrin ötürmə imkanlarının artırılmasına töhfə verəcək. Sənəd Azərbaycan-Qazaxıstan marşrutu üzrə Transxəzər Fiber-Optik Rabitə Xətti layihəsi çərçivəsində iki operator arasında strateji tərəfdaşlığı nəzərdə tutur. Transxəzər Fiber-Optik Rabitə Xətti layihəsi Avropa və Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin yaradılmasını nəzərdə tutan irimiqyaslı "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsinin tərkib hissəsidir.



Telekommunikasiya operatorlarının nümayəndələri beynəlxalq telekommunikasiya xidmətlərinin göstərilməsi sahəsində ikitərəfli biznesin gələcək inkişafında, hər iki ölkənin rəqəmsal transformasiyası və rəqəmsal infrastrukturunun daha da inkişaf etdirilməsində ikitərəfli əməkdaşlığın stimullaşdırılması imkanlarında maraqlı olduqlarını bildiriblər. "Rəqəmsal infrastruktur layihəsi - "Rəqəmsal İpək Yolu"nun tərkib hissəsi olan Transxəzər Fiber-Optik Rabitə Xətti çərçivəsində şirkətlərimiz arasında əməkdaşlıq bizə tranzit imkanlarımızı genişləndirməklə yeni satış bazarlarına çıxmaq üçün imkanlar açacaq. Həmçinin, bu əməkdaşlığın köməyi ilə biz ölkələrimizdə istehlakçılara telekommunikasiya xidmətlərinin göstərilməsinin etibarlılığını daha da artıra biləcəyik", - deyə "AzerTelecom" şirkətinin əməliyyatlar üzrə baş direktoru Sergey Nazarenko bildirib.

"Bu gün bizim üçün birgə vəzifələrin və maraqların həlli istiqamətində ən optimal düstur birbaşa münasibətlər qurmaqdır. "AzerTelecom" ilə birgə fəaliyyət məlumat, qabaqcıl təcrübə mübadiləsini və birgə layihələrin təşviqini nəzərdə tutur. Bütün bunlar, öz növbəsində, hər iki ölkədə internet şəbəkələrinin əlçatanlığı və ötürmə qabiliyyətinin artırılması baxımından yeni bazar imkanlarının inkişafına töhfə verəcək", - deyə "Kazakhtelekom" SC-nin İdarə Heyətinin sədri Kuanışbek Yesekeyev bildirib.

"NEQSOL Holding"in tərkibinə daxil olan "AzerTelecom" Azərbaycanın aparıcı rabitə operatorudur və ölkənin beynəlxalq internet şəbəkəsinə qoşulmasını təmin edir. "Kazakhtelecom" Qazaxıstanın ən böyük telekommunikasiya şirkətidir və milli rabitə operatoru statusuna malikdir.

# Rusiyanın Ukrayna siyasəti: məqsəd var, nəticə yoxdur...








***Məlum olduğu kimi, Rusiya 23-27 sentyabr aralığında Ukraynanın "DNR", "LNR" kimi separatçı qurumlarında və s. nəzarəti altına aldığı bölgələrində referendumlar keçirdi və həmin referendumlarda üzə çıxmış çoxsaylı saxta faktlar sübuta yetirilsə belə, artıq Kreml sözügedən prosesin reallaşdırıldığı qənaətinə gəldiyini nümayiş etdirir. Daha dəqiq desək, Ukraynanın bu əraziləri beynəlxalq aləm tanımasa belə, Rusiyanın təhkimi altına keçir və Ukrayna bu ərazilərdə hərbi əməliyyatlarını davam etdirəcəyi halda Rusiya bunu "öz ərazilərinə müdaxilə" kimi qiymətləndirəcək. Bu faktor isə bölgədəki vəziyyətin daha da gərginləşəcəyi siqnallarını verməkdədir.***

Digər tərəfdən, Rusiyanın Xarkov cəbhəsindəki ağır məğlubiyyətinin ardınca referendum prosesinin ortaya atılması, bunun ardınca nüvə silahının işlədilməsi mümkünlüyü, üstəlik səfərbərliyin elan edilməsi də belə deməyə zəmin yaradır ki, ”bu xəmir hələ çox su aparacaq”. Lakin belə bir mülahizə də yürütmək mümkündür ki, Kreml müharibənin tez başa çatması üçün bu kimi səylərini sürətləndirir. Həmçinin, Rusiyanın digər məqsədləri də var və onlar bir neçə hissəyə bölünüb.

## İqtisadiyyatın tənəzzülü baş verərsə, hansı problemlər yarana bilər?

Hələ sentyabrın əvvəlində bir sıra KİV-lər məlumat yaydılar ki, G7 ölkələri Rusiya neftinin tədarükündə qiymət həddinin müəyyən edilməsi ilə bağlı ümumi razılıq əldə ediblər. Belə ki, qiymət həddi xam neft üçün 2022-ci il 5 dekabr, neft məhsulları üçün isə 2023-cü il 5 fevral tarixində qüvvəyə minə bilər. Məhz bu tarixlərdə Avropa İttifaqının Rusiyadan xam neft və bəzi neft məhsullarının idxalı və tranziti ilə bağlı müştərək embarqoları qüvvəyə minəcək.

Digər tərəfdən, hazırda ABŞ-da Rusiyadan neft, qaz və kömür alan xarici müəssisələrə qarşı ikinci dərəcəli sanksiyaların hazırlandığı bildirilir. Sanksiyaların genişlənməsi isə paralel olaraq Rusiyanın cavab tədbirləri görməsinə zəmin yaradır. Moskva Qərbin enerji və ərzaq böhranı ilə üzləşməsi istiqamətindəki təzyiqlərini artırır. Maraqlıdır ki, hər iki cinah tətbiq etdikləri qərarlarının onlara üçün heç də yaxşı nəticələr verməyəcəyini anlaya-anlaya həmin addımlarını atırlar.

## Moskva itirə-itirə gedir...

Beləliklə, referendum amili sözügedən prosesi daha da sürətləndirməyə başlayıb, xüsusilə sanksiyaların ardıcıllığı və sərtliyi hazırda daha çox görünür. Misal üçün, planlaşdırılan sanksiyalar referendumun təşkilində birbaşa iştirak edən şəxslərə şamil olunacaq və əsasən, Donbas regionunun maliyyələşməsini, onunla iqtisadi münasibətlərin qurulmasını qadağan edəcəkdir.

Bir sıra maliyyə-iqtisadi dairələrin hesablamalarına görə, referendum keçirildikdən sonra Rusiyanın fond bazarı müharibə başlayandan bəri ən güclü çöküş ilə qarşı-qarşıya qaldı. Belə ki, sentyabrın 20-də Moskva birjası 10,7%, RTS isə 10,5% geriləmə nümayiş etdirirdi. Sberbankın səhmləri 5,35%, Lukoylun 9%, Qazpromun 8%, Yandeksin 8,9%, Nornikel isə 2% dəyər itirdi.

Həmin gün Rusiyanın Avrasiya İqtisadi İttifaqı üzrə müttəfiqi Ermənistan ”Mir” kartlarının xidmətinə xitam verdi. Həmçinin, Ermənistana qədər ”Mir” kartlarından Türkiyənin bir sıra nüfuzlu və iri bankları ilə yanaşı, Qazaxıstan da imtina etmişdi.

## Rusiya ordusu Ukrayna cəbhəsində ağır itkilərə məruz qalır



Yuxarıda da qeyd olunduğu kimi, referendumun ardınca bütün Rusiya boyu qismən səfərbərlik elan etdi. İddialar var ki, qismən səfərbərlik sentyabrda elan olunsa da, ona hazırlıq hələ may ayından başlamışdı. Məsələn, hərbi komissarlıqlar ehtiyatda olan hərbçiləri, xüsusilə zabit heyətini və peşəkarları ”hərbi qeydiyyat”, ”yaşayış yerinin və qeydiyyat yerinin təsdiqi” və ya ”səfərbərlik əmrinin çatdırılması” səbəbləri ilə toplayırdılar. Əvvəl qismən səfərbərliyə 300 min insanın cəlb olunacağı bildirilirdisə, hazırda bu rəqəmin 500 minə çatdığı və artacağı da istisna edilmir. O cümlədən, səfərbərlik elanından sonra Rusiyadan digər ölkələrə təyyarə biletləri tez bir zamanda satıldı, biletlərin qiymətləri fantastik dərəcədə pik həddinə çatdırıldı. Rusiya ilə həmsərhəd olan quru ərazilərinə də orduya qatılmaq istəməyənlərin kütləvi axınına başlanıldı. Demək olar ki, ölkənin bütün şəhərlərində etiraz aksiyaları keçirildi. Bütün bunlar əslində Rusiya əhalisinin müharibə əleyhinə olduğunu göstərdi.

## Nüvə təhlükəsi - düyməyə basılacaqmı?

Artıq Kremldən bir neçə dəfə açıq-aydın bəyan edilib ki, son həddə nüvə başlığını istifadə edə bilər. Lakin buna qədər Rusiya Ukrayna ilə savaşında qələbə qazanmağı iki istiqamətdə planlaşdırıb. İlk istiqamət səfərbərliyin elan edilməsidir ki, artıq bu proses realizə olunmaqdadır. Növbəti istiqamət isə nəzarət altına keçmiş ərazilərin Rusiyanın tərkibinə daxil edilməsidir və bu plan da dünya birliyi tərəfindən qəbul edilməyən referendumla tətbiq edilib. Yəni fakt budur ki, Ukrayna ordusunun güclü əkshücumlarını nəzərə alaraq Rusiya referendum keçirdi, bu vasitə ilə ”DNR”, ”LNR”, Xerson və Zaporojye vilayətlərini özünün nüvə çətirinin altına aldı.

Məhz bu baxımdan, RF-nın prezidenti Vladimir Putin nüvə silahının istifadəsinin mümkünlüyünü istisna etmədi. Ancaq daha bir düşündürücü sual budur ki, Qərb nüvə zərbəsinin hansı cinahdan endiriləcəyini bilmir. Daha dəqiq desək, nüvə başlığı tətbiq ediləcəksə, əlbəttə ki, Qərb buna susqun qalmayacaq və dərhal cavab tədbiri görməklə başlığın hansı ərazidən qaldırıldığını müəyyən edəcək, məhz həmin yerə cavab zərbəsi endirəcəkdir. Ancaq sual açıq qalıb - Rusiya nüvə zərbəsini haradan endirə bilər?

Xatırladaq ki, bir müddət əvvəl Rusiya və Belarusiya prezidentlərinin görüşləri zamanı Belarusiya ərazisinə nüvə başlıqlı raketlərin yerləşdirilməsi ilə bağlı razılığa gəlinib. Ancaq buna baxmayaraq, Minsk öz təhlükəsizliyini də nəzərə alaraq ərazisindən Ukraynaya taktiki nüvə zərbəsinin endirilməsinə imkan vermək fikrində deyil. Bu baxımdan, Moskva Minskin etiraz və qadağalarına məhəl qoymayıb, zərbənin endirilməsi haqqında birtərəfli qərar da qəbul edə bilər. Lakin bu addım iki müttəfiq ölkənin arasında ciddi qalmaqallara, hətta müttəfiqliyin pozulmasına qədər də gətirib-çıxara bilər.

Fakt budur ki, təhlükə qalır və bu təhlükə iki ölkəni - Rusiya ilə Ukraynanı təhdid altında saxlamır, eyni zamanda, Qərb ölkələri, o cümlədən, dünya həmin təhdidin təhdidi altındadır. Ona görə də, Rusiya məsələnin bu həddə qədər gəlib-çatmaması üçün müharibəni tezliklə bitirməyə cəhdlər göstərir. Amma bu cəhdlər də hələ ki, nəticə verməməkdədir. Ukrayna və Qərbin anti-Rusiya dirənişi davam edir...

***Rövşən RƏSULOV***

AKTUAL ANALİTİK

*Ermənistan qanunsuz əməlləri, işğalçı siyasəti səbəbindən yaxın və uzaq dostlarının qınağı ilə üzləşib. Uzun illər ermənilər hansı quruluşda olurlarsa olsunlar, kimin hakimiyyətdə olmasından asılı olmayaraq Rusiyanın daim himayəsi altında olub. Bu, sirr deyil və yenilik də deyil. Ermənistanı son vaxtlar daha uyğun adı ilə çağırmağa başlayıblar, Rusiyanın Cənubi Qafqazda "for-post"u. Bəli, bu ad ermənilərə və Azərbaycan torpaqlarında elə rusların əli ilə yaradılmış Ermənistan adlı qondarma dövlətə tam yaraşır...*

# Ermənistan Rusiyanı da satdı




Bu gün Ermənistan rəhbərliyi işğalçı əməlləri sayəsində postsovet məkanındakı dostlarını da itirir. Son hadisələrdə Rusiya NATO-su sayılan KTMT-dəki dostlarının Azərbaycana qarşı çıxış etməmələri Ermənistan hakimiyyətini dost axtarışına çıxmağa vadar edib. Baxmayaraq ki, Ermənistanın bütün iqtisadiyyatı, gəlir gətirən sektoru Rusiyanın əlindədir və Ermənistanın bütün sərhədləri Rusiya sərhədçiləri tərəfindən qorunur, İrəvan hələ də özünə yeni ağa axtarışındadır. Ermənistanın baş naziri Nikol Paşinyan ABŞ-la təmaslarını başa vurar-vurmaz Fransaya səfərə getdi. Fransa prezidenti Emmanuel Makronla görüşdü və adəti üzrə Parisdən dəstək istədi. Eyni zamanda Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ABŞ-a səfər etdi, görüşlər keçirdi və o da amerikalılardan yardıma ehtiyaclarının olduğunu dedi.

Emmanuel Makron Nikol Paşinyanla birgə mətbuat konfransında bildirib ki, Fransa Azərbaycan və Ermənistanı danışıqları bərpa etməyə çağırır. Onun sözlərinə görə, güc tətbiqi münaqişə tərəflərinin heç biri üçün həll yolu deyil. Fransa prezidenti etiraf edib ki, Ermənistan-Azərbaycan sərhədində vəziyyət son dərəcə gərgin olaraq qalmaqda davam edir. O Paşinyana söz verib ki, Azərbaycan qoşunlarının ilkin mövqelərinə geri çəkilməlməri üçün lazım olan bütün tədbirləri görəcək. Bundan sonar Makron bütün bunları Azərbaycan Prezidenti İlham Əliyevlə telefonla danışığı zamanı da xatırladıb.



Nikol Paşinyan öz növbəsində, BMT Təhlükəsizlik Şurasına sədrlik edən Fransaya Azərbaycan və Ermənistan arasında münaqişə məsələsinin məhz Makronun dəstəyi ilə Təhlükəsizlik Şurasının iclasının gündəliyinə salınmasına görə təşəkkür edib. Paşinyan vurğulayıb ki, Ermənistan-Azərbaycan sərhədinin delimitasiya olunmaması ilə bağlı bəyanatlar reallığa uyğun gəlmir, çünki sərhəd hələ sovet dövründən mövcuddur. "Sovet Ermənistanı ilə Sovet Azərbaycanı arasındakı inzibati sərhədlər iki ölkə müstəqillik əldə etdikdən sonra, Ermənistan və Azərbaycan 1991-ci il dekabrın 8-də Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Sazişi imzalayıb ratifikasiya etdikdən sonra ilk aylarda dövlət sərhədlərinə çevrildi... Bu, isə o deməkdir ki, Azərbaycanın indiki hərəkətləri şüurlu təcavüzdən başqa cür qiymətləndirilə bilməz", - Nikol Paşinyan bildirib.

Maraqlıdır, Paşinyan yaşından və başından irəli gedərək 1991-ci ilə sərhədlə bağlı sənəddə danışır. Bəli, sadəcə, özünə sərf edən şəkildə danışır. Bəs Ermənistanın faktiki rəhbəri olan Paşinyanın ötən 30 il ərzində, Azərbaycan torpaqlarının işğal altında saxlandığı müddətdə niyə sərhədlər yadına düşmürdü? Əgər həmin xəritələr Ermənistanda da varsa, onda Azərbaycanın sərhəd xəttini pozmadığını da bilməmiş deyillər. Bir həqiqət də budur ki, Ermənistan rəhbərliyi tərəfindən Qarabağın Azərbaycan ərazisi olduğunu etitaf və təsdiq edilir.

Paşinyan hər görüşündə regionda vəziyyətin gərgin olaraq qaldığını deyir. Ermənistanın baş naziri "zərər çəkmiş ərazilər"ə beynəlxalq müşahidə missiyası göndərməyə çağırıb. Bildirib ki, bu, beynəlxalq ictimaiyyətə dolayı deyil, birbaşa məlumat almağa kömək edəcək. Paşinyan vurğulayıb ki, Ermənistan əhatə edəcəyi ölkələrin milli qanunvericiliyinə uyğun olaraq köhnə kommunikasiyaları açmağa və yeni kommunikasiyalar qurmağa hazırdır. Eyni zamanda o, Qarabağ məsələsinin Qarabağ ermənilərinin hüquqlarının və təhlükəsizliyinin təmin ediləcəyi şəkildə həllinin vacibliyinə diqqət çəkib. "Azərbaycanla Qarabağ arasında müzakirənin başlaması faydalı olar", - deyən Paşinyan Fransanın "danışıqlar prosesinə himayədarlıq edən ATƏT-in Minsk qrupunun həmsədri" kimi bu məsələdə böyük rol oynaya biləcəyini vurğulayıb.

Paşinyanın Paris səfərinin praktiki nəticələri hissə-hissə ictimaiyyətə açıqlanmaqdadır. Bu arada Fransanın nüfuzlu "Le Figaro" nəşrinin direktor müavini Jan-Kristof Buisson sosial şəbəkədəki səhifəsində Fransa və Avropa İttifaqını müdafiə sənayesinə rəhbərlik edənləri Ermənistana silah tədarükü məsələsini müzakirə edən ABŞ Konqresindən nümunə götürməyə çağırıb.

Konqresdəki bu müzakirələr Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Vaşinqtona işgüzar səfəri ilə eyni vaxta düşüb. Onun səfəri həm hazırkı, həm də keçmiş ABŞ rəsmiləri, səfirlər, beyin mərkəzlərinin rəhbərləri ilə görüşlərlə son dərəcə gərgin olub. Qriqoryanın missiyası həmsöhbətlərinə Azərbaycanın təhdidləri barədə məlumat vermək olub. Bütün danışıqlarda Qriqoryan diqqəti "Azərbaycanın genişmiqyaslı təcavüzü... erməni demokratiyasını təhdid edən" fikirlər üzərində cəmləyib. O, həmçinin Azərbaycanın yeni beynəlxalq hüququ kobud şəkildə pozması faktlarını, mülki əhaliyə və infrastruktura hücumlar faktlarını göstərib.

ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays mövcud vəziyyətə toxunaraq bildirib ki, Vaşinqton üçün İrəvan və Bakının mövqelərini yaxınlaşdırmaq vacibdir. "Biz Azərbaycanı qoşunları ilkin mövqelərinə qaytarmağa çağırırıq... və biz bu ölkələr arasında bütün məsələləri dinc danışıqlar yolu ilə həll etməyə çağırırıq", - Prays bildirib.

Bu arada Amerika Erməni Milli Komitəsi (ANCA) mesaj yayıb ki, Amerika siyasətçiləri ABŞ Konqresinin təzyiqi altında müdafiə məqsədilə Ermənistana Amerika silahlarını satmağı düşünürlər. "Ermənistan müstəqilliyini elan etdikdən sonra ilk dəfədir ki, ABŞ Azərbaycanla son gərginliyin artması səbəbindən Ermənistana silah satmaq imkanını nəzərdən keçirir", - məlumatda deyilir.

Maraqlıdır ki, həm Paşinyan, həm də Qriqoryan görüş və çıxışlarında Rusiyadan Qərbə istiqamətlənən təhdidlərdən heç bəhs etməyiblər. Amma İrəvan özünü elə göstərməyə çalışır ki, Moskva ilə müttəfiqliyə sadiq qalır.

Buna baxmayaraq, Ermənistan Müdafiə Nazirliyi KTMT-nin Qazaxıstanda sentyabrın 26-da başlayan və oktyabrın 8-dək davam edəcək təlimlərində iştirak etməmək qərarına gəlib. İrəvan öz mövqeyini Ermənistan-Azərbaycan sərhədindəki ağır vəziyyətlə izah edib. Amma yəqin ki, məsələ təkcə bunda deyil, həm də Ermənistanın müttəfiqin köməyini gözləmədiyi bir vaxtda Azərbaycanın son hücumlarına alyansın biganə münasibətindədir.

Ermənistanın özündə birinci prezident Levon Ter-Petrosyanın İctimai Televiziyanın efirində verdiyi açıqlama geniş rezonans doğurub. "Çətin ağrılı qərarlarla üz-üzəyik. Azərbaycan və Türkiyə ilə müqavilələr imzalanmalıdır ki, burada heç kimin xoşuna gəlməyəcək, amma alternativi yoxdur", - deyən Ter-Petrosyan bu iki qonşu ölkə ilə sülh sazişi olmadan Ermənistanın inkişafının mümkün olmadığını qeyd edib. Ter-Petrosyan bu yaxınlarda erməni katolikosu II Qareginin ölkənin keçmiş prezidentləri ilə görüşünə də toxunub. O bildirib ki, Nikol Paşinyanla dialoq aparmağı özü təklif edib. Ter-Petrosyan digər eks-prezidentlərin reaksiyası barədə heç nə deməyib və vurğulayıb ki, Ermənistanda baş verənlər barədə yalnız bir nəfərin tam məlumatı var - Nikol Paşinyanın. "Bəlkə də bunu yaxın çevrəsindən olan insanlarla bölüşür. Yəni Rusiya, Türkiyə və ABŞ-ın nə təklif etdiyi ilə bağlı bütün həqiqəti iki-üç adam bilə bilər. Nə məndə, nə Robert Köçəryanda, nə Serj Sarkisyanda, nə də həzrətlərinin bu məlumatı yoxdur", - deyə Levon Ter-Petrosyan bildirib.

Bəli, Ermənistanda müəmmalar davam edir. Hökumət nə etdiyini bilmir. Bu tərzi nəinki əzəli müttəfiqi Rusiya, heç dərin münasibətlərdə olduğu Qərb ölkələri də analiz edə bilmir. Ona görə yox ki, Paşinyanın "şahmat gedişləri"ndən kiminsə başı çıxmır, əksinə özünü xaotik hərəkəti Ermənistanın da kələfini itirib

**V.VƏLİYEV**

## İşğaldan azad edilmiş ərazilərin iqtisadi vəziyyəti necədir?

"İşğaldan azad olmuş ərazilərimizdə son iki ilə yaxın müddətdə inkişafın müsbət istiqamətlərinin olmasını əminliklə qeyd edə bilərik". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Elşad Məmmədov deyib.



Onun sözlərinə görə, dövlət kapital qoyuluşları da ilbeil dövlət büdcəsində əks olunur: "Bununla yanaşı texnologiyalar sürətlə idxal edilir. Yüksək texnoloji tutumlu sahələr inkişaf etdirilir. Düşünürəm ki, yaxın müddətli perspektivdə özəl daxili investisiyalar da Qarabağda inkişaf etdiriləcək. Bununla yanaşı şübhəsiz ki, əsas ilkin mərhələdə məsələlər infrastruktur təminatı ilə bağlıdır. Bütövlükdə infrastruktur təminatı lazımı səviyyədə olmalıdır ki, işgüzar biznes fəaliyyəti üçün həmin bölgədə müvafiq baza yaradılsın və investorlar intensiv şəkildə işğaldan azad edilmiş bölgələrimizə üz tutsun. Sosial iqtisadi inkişaf həm də bütövlükdə ölkə iqtisadiyyatı üçün təsirini göstərəcək. Unutmaq olmaz ki, ölkə Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş ərazilərin inkişafına verdiyi önəm onu deməyə əsas verir ki, yaxın illərdə həmin bölgədə sürətli sosial-iqtisadi inkişafın təmin edilməsinin şahidi olacağıq".

İqtisadçı sözlərinə əlavə edərək bildirib ki, ilbeil həm dövlət kapital qoyuluşlarında, həm özəl investisiyalarda, həm də texnologiyaların idxalında işğaldan azad edilmiş ərazilərdə artım trendləri müşahidə ediləcək: "Bu investisiyaların artımı hesabına biz işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafının şahidi olacağıq. Sözsüz ki, ölkə Prezidentinin qeyd etdiyi kimi həmin bölgədəki sosial-iqtisadi inkişaf və sosial-iqtisadi idarəetmə modeli tədricən ölkəmizin digər bölgələrinə də yayılacaq ki, ölkə iqtisadiyyatının rəqabət qabiliyyəti sürətlə artacaq, digər tərəfdən ölkədə sosial müdafiə sisteminin son illər ərzində hiss edilən müsbət istiqamətləri ardıcıl və dayanıqlı şəkildə davam etdiriləcək".




***Qönçə Quliyeva***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Ermənistan Qərbin dəstəyi ilə Azərbaycan və Rusiyaya qarşı oynamağa çalışır"

***Politoloq, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko "Moskva-Bakı"ya müsahibəsində Ermənistanın baş naziri və Təhlükəsizlik Şurası katibinin Fransa və ABŞ-a qəfil səfərləri və Volodinin buna paralel olaraq Bakıya səfəri barədə maraqlı fikirlər bildirib.***



**- İqor Yuryeviç, Paşinyan, demək olar ki, Nyu-Yorkdan dərhal sonra qəfildən Fransaya getdi və orada Makronla görüşdü. Görüşdən əvvəl Ermənistanın baş naziri bunu "çox vacib danışıqlar" kimi qiymətləndirdi. Eyni zamanda Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da bir sıra işgüzar görüşlər keçirdiyi ABŞ-a uçdu. Bunun fonunda ABŞ-dakı erməni separatçıları amerikalı konqresmenlərlə görüşdülər. Bu, Ermənistanın bir növ "yürüşü" kimi görünür...**

- İrəvan ABŞ və Fransanın dəstəyinə arxalanaraq Qarabağın erməni separatçılarına bədnam qondarma "status" kartını oynamaqda davam edir. Paşinyan Paris və Vaşinqtonun köməyi ilə siyasi mövqeyini maksimum dərəcədə artırmağa çalışır. Ermənistanın baş nazirinin Fransaya və Ermənistan Təhlükəsizlik Şurası katibinin ABŞ-a səfərləri, əvvəllər gördüyümüz bütün səfərlər, o cümlədən Nensi Pelosinin İrəvana səfəri kimi, tamamilə sinxron səfərlərdir.

Paşinyan sərhəddə vəziyyətin gərginləşməsini əsas gətirərək ŞƏT sammitinə getməkdən imtina etdi, lakin bir həftə sonra BMT Baş Assambleyasında sevinclə danışdı. Təbii ki, belə təsadüflər baş vermir, ABŞ və Avropa İttifaqına açıq-aşkar reverans nümayiş etdirən Ermənistanın baş nazirinin strategiyasına uyğundur. Ermənistan hökumətinin başçısı Azərbaycanla sülhdən əl çəkmək, Rusiyanın Cənubi Qafqazdakı mövqeyini mümkün qədər zəiflətmək və belə bir xarici siyasət yeritmək üçün beynəlxalq münasibətlərdəki böhrandan, yüksək dərəcədə təlatümlülükdən istifadə etməyə çalışır. Paşinyan maksimum dərəcədə Qərb tərəfdaşlarının dəstəyi ilə Azərbaycan və Rusiyaya qarşı oynamağa çalışır.

**- Son həftələr İrəvan tərəfindən KTMT-yə qarşı davamlı tənqidlər də buna görədir...**

- Bəli, bu, Qərblə "flört etmək" siyasətinin davamıdır. Paşinyan başa düşür ki, ABŞ-ın gözündə siyasi xal qazanmaq üçün KTMT-yə mümkün qədər hücum etməlidir, eyni zamanda, Ermənistanın təşkilatı tərk etməsinin "lazımlığı" barədə ölkədə ictimai rəy formalaşdırmalıdır. Ola bilsin ki, həqiqətən də belə bir qərar İrəvan tərəfindən verilərsə, Ermənistan cəmiyyətində çoxluq onu dəstəkləsin.

Əslində, hesab edirəm ki, indi Ermənistanın KTMT-dən çıxması məsələsi gündəmdə deyil. Bu, müxtəlif sövdələşmələr, Paşinyan tərəfində "razılaşmalar" oynamaq, müəyyən bonuslar almaq cəhdləri və ya hansısa yolla müşayət olunacaq. Ermənistanın KTMT-dən çıxarılması ilə bağlı qərarı Paşinyan ABŞ və Avropa İttifaqından, yəni, NATO-dan birmənalı hərbi təminat aldıqdan sonra verəcək. Bu arada siyasi sövdələşmə gedir, lakin Ermənistan vektorunu açıqlayıb- o, birmənalı olaraq qərbyönlüdür.

**- Ermənistanın baş nazirinin BMT Baş Assambleyasında çıxışına, verilən bəyanatlara baxanda belə görünür ki, İrəvan birdən-birə Azərbaycanla müharibə şəraitində olduğunu göstərmək qərarına gəlib. Prinsipcə, bu və ya digər dərəcədə müharibədən əvvəlki şərtlərini diktə etmək və Azərbaycanı beynəlxalq ictimaiyyətin gözündə "təcavüzkar" kimi təqdim etmək. Bundan əlavə, Paşinyan Ermənistan-Azərbaycan nizamlanması məsələlərinin münaqişənin 30 ili ərzində öz effektivliyini göstərməyən BMT və ATƏT mexanizmləri vasitəsilə həllini təklif edib. Həm də - Azərbaycanla sərhəddə beynəlxalq missiya yerləşdirmək.**

- Bəli, İrəvan diqqəti Qərb auditoriyasına yönəltməklə beynəlxalq ictimaiyyətə təsir etməyə çalışır. Amma Paşinyanın dedikləri və təklif etdikləri siyasi baxımdan əhəmiyyətsizdir. Bölgədə yeni reallıq yaranıb. Və elə oldu ki, Azərbaycan İkinci Qarabağ müharibəsində qalib gəldi. Ermənistan reallığı dəyişdirmək gücündə deyil. Burada Azərbaycanın siyasi, iqtisadi, hərbi qələbəsi faktoru var. Əgər Paşinyan hansısa təxribat təşkil etməkdə davam etsə, rəsmi Bakı onu ciddi şəkildə cəzalandıracaq. Düşünmürəm ki, burada heç kimin şübhəsi yoxdur. İlham Əliyevin bütün hərəkətləri isə beynəlxalq hüquq əsasında legitim olacaq. Rusiya bunu başa düşəcək. Belə olan halda Ermənistanı daha da qulaqbatırıcı hərbi məğlubiyyət gözləyir.



*İqor Korotçenko: İrəvan ABŞ və Fransanın dəstəyinə arxalanaraq Qarabağın erməni separatçılarına bədnam qondarma "status" kartını oynamaqda davam edir*

**- Qərb dövlətləri Rusiyaya rəğmən Ermənistana əməli yardım göstərə bilərmi?**

- Məncə, istənilən varianta ehtimal vermək olar. Biz indi görürük ki, Qərb Ukraynaya necə dəstək verir. Ermənistan-Azərbaycan nizamlanmasında Paris və Vaşinqton Azərbaycanın ərazi bütövlüyü məsələsi ilə oynayır, Qarabağın "statusu" məsələsində Ermənistanı dəstəkləməyə çalışırlar. Ermənistanın Təhlükəsizlik Şurasının katibi ABŞ-a səfəri zamanı Qərbin İrəvanı dəstəkləməsi variantlarını axtarır, bundan əvvəl Ermənistanın müdafiə naziri də eyni məqsədlə ştatlara uçmuşdu. İrəvan hərbi dəstək istəyir və bu, NATO qüvvələrinin regionda real mövcudluğu ilə ifadə edilir. Təbii ki, Rusiya buna imkan verməyəcək. Bəli, Rusiyanın diqqəti indi Ukraynaya yönəlib və bu dəqiqə Paşinyan faktiki olaraq Rusiyanı kürəyindən bıçaqlayır, həm də ən əsası, Rusiyada yaranmış tarazlığı pozmaq üçün Rusiyanın maraqlarına qarşı tamamilə alçaq hərəkət edir. İkinci Qarabağ müharibəsinin regional nəticələrini unudaraq.

Düşünürəm ki, gələcəkdə yenidən silahlı təxribatlar ola bilər. Azərbaycan isə onlara sərt cavablar verməlidir. Vəziyyət, təbii ki, təlatümlü və təhlükəlidir və Ermənistan rəhbərliyindən qeyri-adekvat və təhlükəli addımlar gözləmək olar.

**- Bununla yanaşı, Azərbaycan səbirlə Ermənistanı konstruktiv olmağa çağırmaqda davam edir. Nümunə olaraq Azərbaycan xarici işlər nazirinin Baş Assambleyada Paşinyanın çıxışından sonrakı çıxışını göstərmək olar.**

- Bəli, Bakı buna davam edir. Ancaq bu onlara çatmazsa, cavab vermək üçün müxtəlif variantlar ola bilər. Paşinyan Rusiya və Azərbaycan liderləri ilə imzalanmış üçtərəfli sazişləri yerinə yetirməməyi düşünsə, buna nail olmayacaq. Rusiya və Azərbaycan birgə səylərlə onu müsbət istiqamətə yönəldəcək, ona siyasi təsir göstərəcək. Yaxud da dediyim kimi, o cümlədən Azərbaycandan hərbi cavabla. Mənə elə gəlir ki, Ermənistan rəhbərliyi məhz bu variantı da yaxşı başa düşür ki, istənilən hərbi əməliyyatdan sonra güclü, effektiv hərbi cavab veriləcək.

**- Bütün elan edilən tədbirlərə paralel olaraq biz Rusiya Dövlət Dumasının sədrinin Bakıya necə rəsmi səfər etdiyini gördük. Prezident Əliyevlə görüş oldu. Sizcə, görüşdə Ermənistan-Azərbaycan trasında risklərin qarşısının alınması mövzusu müzakirə olunubmu?**

- Bəli, baxmayaraq ki, bu məsələ daha çox dövlət başçılarının-Putin və Əliyevin səlahiyyətindədir. Ən azından, Moskva və Bakı bir daha göstərdilər və Əliyevin dilindən kifayət qədər aydın səsləndi ki, hər iki ölkə regionu 30 illik böhrandan çıxarmaqda maraqlıdır, Rusiya və Azərbaycanın ümumi məqsədi regionda sülhdür.

Eyni zamanda, Paşinyan Fransaya uçur, məmurlar sözün əsl mənasında, sırayla Qərbə uçur, Dövlət Dumasının sədri Volodin Bakıda Azərbaycanla əlaqələrin inkişafını müzakirə edir. Və təbii ki, Cənubi Qafqazda neqativ ssenarilərin qarşısının alınması və birbaşa Ermənistana aid olan sülh gündəliyinin həyata keçirilməsi.

Volodinin səfəri zamanı fevralda iki ölkə liderləri tərəfindən imzalanmış Müttəfiqlərin Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin icrasının parlament ölçüsü müzakirə olunub. Onlar Bəyannamənin imzalanmasından sonra 8-ə çatan Rusiya və Azərbaycanın "yol" xəritələrinin icrası, bununla bağlı parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi məsələlərini müzakirə ediblər- nəhayət, iki ölkənin vitse-spikerləri də daxil olmaql parlamentlərarası komissiya yaradılacaq. Bu, Milli Məclis sədrinin ilin sonunadək həyata keçiriləcək Rusiya səfəri zamanı həyata keçiriləcək. Nəzərinizə çatdırım ki, Volodinin səfəri imzalanmış müttəfiqlik sənədinin praktiki məzmununu xatırladır, ona görə Rusiya Azərbaycanın ərazi bütövlüyünü və münasibətlərimizin geniş spektrində inkişafını nəinki tanıyır, həm də dəstəkləyir. Vyaçeslav Volodin Vladimir Putinin xoş arzularını və salamlarını Prezident Əliyevə çatdırdı və bir daha qeyd etdi ki, iki ölkə arasında münasibətlər prezidentlərin sayəsində daha da inkişaf edir. Volodinin Bakıya səfəri Rusiyanın Azərbaycanla münasibətlərin dərinləşməsinə diqqət yetirməsinin növbəti göstəricisidir. Bugünkü beynəlxalq vəziyyət fonunda bu, daha vacibdir.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
29 sentyabr
2022-ci il

# "Barselona"nın oyunçusu dünya çempionatını buraxa bilər



*Uruqvay millisinin və İspaniya "Barselona"sının futbolçusu Ronald Arauxo bu il Qətərdə keçiriləcək dünya çempionatını buraxa bilər.*

Milli.az bildirir ki, buna 23 yaşlı müdafiəçinin yığmanın düşərgəsində zədələnməsi səbəb olub.

İrana 0:1 hesabı ilə uduzduqları yoldaşlıq matçının 5-ci dəqiqəsində sağ budundan xəsarət alan gənc oyunçu əməliyyat olunacaq. Kataloniya təmsilçisi Arauxonun bərpa dövrünün müddətini açıqlamayıb.

Futbolçunun 20 noyabr - 18 dekabrda gerçəkləşəcək mundialda iştirak etməyəcəyi ehtimal olunur.

Qeyd edək ki, "Barselona"nın niderlandlı oyunçuları Frenki de Yonq və Memfis Depay, həmçinin, fransalı futbolçular Jül Kunde və Usman Dembele də öz yığmalarının düşərgəsində zədə alıb.

# Uşaqlar payızda niyə tez-tez xəstələnirlər?- həkim açıqladı



*"Davamlı müşahidə edilən isti hava şəraitindən sonra havanın birdən soyuması xüsusilə uşaqlar arasında soyuqdəymə və qripə yoluxma sayının artmasına səbəb olur". Bu sözləri SİA-ya açıqlamasında həkim-pediatr Ülkər Quliyeva deyib.*

Onun sözlərinə görə, havanın soyuması ndan əlavə məktəblərin işə başlaması da uşaqların bir-biri ilə daha çox ünsiyyətdə olmasına və virus infeksiyaların artmasına şərait yaradır: "Ümumiyyətlə, yuxarı tənəffüs yollarının virus xəstəlikləri ilə koronavirus infeksiyasının əlamətləri çox oxşardır. Yəni, hər ikisi baş ağrısı, temperatur olması, əzələ ağrıları, yorğunluq, burun axması, boğaz ağrısı halsızlıqla müşahidə olunur. Lakin istənilən halda heç bir klinik semptom əsasında diaqnozun dəqiqləşdirilməsi mümkün deyil. Yalnız psr testinə əsasən, xəstəliyin koronavirus olub-olmaması ilə bağlı dəqiq diaqnoz qoymaq olar. Bir sıra infeksiyon xəstəliklərin qarşısı vaksinasiya hesabına alına bilər. Bununla yanaşı, uşaqda bu semptomlar hiss edilərsə orqanizmdə immuniteti yüksəltmək lazımdır. Bu zaman biz həkimin təyin etdiyi preparatları vaxtında qəbul etməklə və çoxlu su içməklə xilas ola bilərik. Valideynlər vitaminlərlə zəngin meyvə tərəvəz rasionuna üstünlük verməlidir".

***Qönçə***

# Payızda turizm necədir?



TURİZM EKSPERTİ AÇIQLADI

"Artıq payız ayındayıq və yay mövsümü yekunlaşıb. Məktəblər və Universitetlər açılıb, iş həyatı daha stabil şəkildə başlayıb. Payızda bu stabilləşmə səbəbilə turizmdə müəyyən qədər mövsümün daha aşağı olmasını müşahidə edirik". Bu sözləri SİA-ya açıqlamasında "SKAL İnternational Baku" klubunun (Səyahət və Turizm Peşəkarları Beynəlxalq Assosiasiyası) sədri Ceyhun Aşurov deyib.

Onun sözlərinə görə, əvvəlki aylarda olduğu kimi, turizm obyektlərində doluluq o qədər də yüksək səviyyədə deyil: "Ona görə bu, qiymətlərə də təsirini göstərib. Yay mövsümi ilə müqayisədə daha endirimli qiymətlər var. Bəzən payızda təşkil olunan turlarda əlavə bir günlük qalmaq üçün otel pulunu da ümumi qiymətə daxil edirlər. Onlar qiymətləri aşağı endirməklə insanları cəlb etməyə çalışırlar. Bayram günləri və qeyri- iş günləri doluluq müşahidə olunur. Digər günlər üçün də müxtəlif kampaniyalar həyata keçirilir ki, bu da əvvəlki qiymətlərlə müqayisədə təxminən 30 faiz fərq yaradır. Həftə sonları gənclərimiz payızın sərin və çox da isti olmayan havalarında kamp turlarına gedirlər. Bu, maraqlı vaxt keçirməyin və əylənməyin yoludur".

***Q. Quliyeva***



# Bu gün 32 dərəcə isti olacaq



Azərbaycanda sentyabrın 29-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 18-20°, gündüz 25-28° isti, Bakıda gecə 18-20°, gündüz 25-27° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı- 755 millimetr civə sütunundan 759 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 14-18°, gündüz 28-32° isti, dağlarda gecə 5-10°, gündüz 14-19° isti olacağı gözlənilir.

# BİLİRSİNİZMİ?



Araşdırmalara görə bədəndə həddindən artıq qıl olması həmin insanın yüksək bir zəkaya sahib olduğunu göstərir.

* * *

Bir Roma papası öldükdə, onun ölümünü qarantiyə almaq üçün kəllə sümüyü Gümüş Çəkic ilə 3 dəfə əzilir.

* * *

Çox keçmiş vaxtlarda solaxayların şeytan olduqlarına inanırdılar. Bu səbəbdən solaxayları yandıraraq öldürərdilər.

* * *

Dünyanın ən böyük vulkanı Amerikada Yellowstone Milli parkında yerləşən Yellowstone vulkanıdır.

* * *

İslandiya dövlətində ordu yoxdur. Onun funksiyalarını qismən sahil mühafizəsi xidməti yerinə yetirir.

* * *

Kaliforniya heyvan kürkü satışını qadağan edən ilk və tək əyalətdir.

# Azərbaycan nefti 1 dollardan çox bahalaşıb

Dünya bazarında "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 1,1 ABŞ dolları, yaxud 1,23 % artaraq 90,17 ABŞ dollarını təşkil edib. Bu barədə SİA-ya neft bazarındakı mənbə məlumat verib. Hərraclarda "Brent" markalı neftin oktyabr fyuçersləri 84,87 ABŞ dollara satılıb. Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 85 ABŞ dollarından götürülüb.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb. Azərbaycanda neft əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsi haqqında müqavilə çərçivəsində hasil edilir. Müqavilədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) payı 25 %-dir.



***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**